Elxan Şahinoğlu

# DAĞLIQ QARABAĞ: STATUSSUZ STATUS




**DÜNYANIN 10 MUXTARİYYƏT TƏCRÜBƏSİ**

**Azərbaycan Avrointeqrasiya**
**Milli İctimai Komitəsi**

**Elxan Şahinoğlu**

# DAĞLIQ QARABAĞ: STATUSSUZ STATUS

## Dünyanın 10 muxtariyyət təcrübəsi

**Qanun – 2010**

Az 2

**Elxan Şahinoğlu.**
**DAĞLIQ QARABAĞ: STATUSSUZ STATUS.**
**Dünyanın 10 muxtariyyət təcrübəsi.**
Bakı: Qanun, 2010, 80 səh.

*Kitab Azərbaycan Avrointeqrasiya Milli İctimai Komitəsinin maliyyə dəstəyi ilə çap olunub. Kitabdan konfliktoloqlar, Dağlıq Qarabağ münaqişəsinin həlli mövzusunu işıqlandıran jurnalistlər və tələbələr istifadə edə bilərlər.*

Q )700070016 / ÀÁ 022051

Az 2
© Qanun, 2010

© E.Şahinoğlu, 2010

# MÜNDƏRİCAT


Ön söz ........................................................................................... 4

Aland adaları – ən optimal muxtariyyət statusu ...................................12

Tatarıstan modeli iqtisadi rifah deməkdir ............................................18

Krımın statusu: ortaq məxrəcin məhsulu .............................................23

Kanada silahlı separatizmə baş əymədi ..............................................32

Cənubi Tirol: referenduma ehtiyac duyulmayan geniş muxtariyyət......37

Triestin müstəqillikdən üstün tutduğu muxtariyyəti .............................44

Şimali İrlandiya modeli: Böyük Britaniyanın ərazi bütövlüyünü şərtləndirən geniş özünüidarə hüququ .............................48

Kataloniyanın Madridlə razılaşdırdığı status ......................................55

Honkonq modeli: “bir dövlət – iki sistem” .........................................61

Puerto-Rikodakı referendum erməni separatçılarının tələb etdiyi referenduma bənzəmir ....................................................66

Dağlıq Qarabağ modeli: statussuz status .............................................72

Mənbələr..............................................................................................76

# ÖN SÖZ

1980-ci illərin ortalarında Dağlıq Qarabağda baş qaldıran erməni separatizminin hədəfi bölgədə var olan muxtar statusu Ermənistanla birləşməyə və ya müstəqilliyə dəyişdirmək idi. Tələblərinə mitinqlərlə başlayan, az sonra silaha əl atan separatçılar qısa müddətdə Dağlıq Qarabağın azərbaycanlı əhalisini bölgədən qovdu. Çünki Dağlıq Qarabağın azərbaycanlı icması separatçıların Ermənistanla birləşmək və ya müstəqillik planları qarşısında başlıca maneə idi. Separatçılar hələ fəaliyyətə başlamadan öncə bunu özləri üçün tam müəyyənləşdirmişdilər. Şuşadan olan qohumlarım bəzi ermənilərin Xankəndidən Şuşaya gələrək imza toplamağa çalışdıqlarının şahidi olmuşdular. İmzatoplama kampaniyası Xankəndidəki mitinqlərdən çox əvvəl başlamışdı. Görünür, separatçılar həmin yolla Şuşadakı azərbaycanlıların nəbzini yoxlayırdılar. Bu, onların "işə" hərtərəfli hazırlıqlı olmasından xəbər verirdi. Nəticədə, erməni separatçıların "fəaliyyət planı" iki xalqın üz-üzə dayanmasına, müharibəyə, qətllərə, soyğunlara, Xocalı soyqırımına, on minlərlə insanın həlak olmasına və hələ də mürəkkəb görünən problemin həllinin uzanmasına yol açdı.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolunda bu vaxtadək xeyli təşəbbüs və həll planı irəli sürülüb. ATƏT-in Minsk Qrupu 1990-cı illərin ortalarında ard-arda “mərhələli”, “paket” və “ümumi dövlət” həll planlarını ortaya qoydu. “Mərhələli həll” planını Ermənistan, “paket” və “ümumi dövlət” həll planlarını isə Azərbaycan qəbul etmədi. Bu arada, Parisdə, Ki-Uestdə (ABŞ) və Paris yaxınlığındakı Rambuye qəsrində Azərbaycan və Ermənistan prezidentlərinə anlaşma mətnləri təklif edildi ki, bu görüşlər də nəticəsiz qaldı. İndi masa üzərində “Madrid prinsipləri” deyilən həll planı var. Doğrudur, Azərbaycan hakimiyyəti bu sənədi yeniləşdirilmiş Madrid prinsipləri adlandırır, rəsmi İrəvan və eləcə də həmsədrlər isə bu ifadəni işlətməkdən çəkinirlər. Az qala hansı şəhərdə görüş keçirilirsə, həmin şəhərin adı ilə yeni həll planı meydana çıxır. Ancaq ad nə olursa olsun, son prinsiplərin ümumi mahiyyəti bəllidir: işğal altındakı 5 rayon (Ağdam, Füzuli, Zəngilan, Qubadlı və Cəbrayıl) və Laçının 13 kəndi azad edilir, qaçqınlar geri qayıdır, bütün kommunikasiya xətləri açılır, Dağlıq Qarabağ üçün aralıq status müəyyənləşdirilir, bölgədə tərkibi hələ bəlli olmayan sülhməramlı qüvvələr yerləşdirilir, Laçın və Kəlbəcərin boşaldılması tarixi dəqiqləşdirilir və gələcəkdə Dağlıq Qarabağın yekun statusu ilə bağlı referendum keçirilir.

Azərbaycan hakimiyyəti bəzi istisnalarla bu prinsipləri ümumən qəbul etdiyini açıqlayıb. Rəsmi İrəvan isə hələ düşünür: planda göstərilən ardıcıllıq onu qane etmir, bütün

maddələrin Dağlıq Qarabağın yekun statusuna bağlanmasını istəyir. İrəvan Dağlıq Qarabağın yekun statusunu müəyyənləşdirəcək referendum məsələsinə konkretlik gətirməyi tələb edir.

Azərbaycan hakimiyyəti status məsələsini ümumilikdə rədd etməsə də, planın ilkin maddələri yerinə yetirildikdən sonra bu mövzunun müzakirəsinin mümkün olduğunu vurğulayır. Əslində söhbət yenə əvvəlki illərdə olduğu kimi, "mərhələli" və ya "paket" həll variantları üzərindəki mübahisədən gedir. Azərbaycanın "əvvəlcə torpaqlar işğaldan azad edilsin, qaçqınlar geri qayıtsın, sonra o biri məsələlərin müzakirəsi mümkündür" tələbi "mərhələli həll" planına uyğundursa, Ermənistanın bu deyilənlərin statusla birgə həll olunması tələbini səsləndirməsi isə "paket həll" variantı deməkdir.

Azərbaycan prezidenti İlham Əliyev 2009-cu ilin iyul ayında Rusiyanın "RTR" televiziya kanalına müsahibəsində həll planındakı referendum maddəsinin izahını belə vermişdi: "Referendum 10 il, 20 il, 100 il sonra keçirilə və ya heç keçirilməyə də bilər". Azərbaycan referendum tarixini qeydə alacaq həll planına yaşıl işıq yandıra bilməz. Çünki bu, faktiki Dağlıq Qarabağın yaxın gələcəkdə müstəqillik yolunun açılması anlamına gələcək. Nə qədər azərbaycanlı qaçqın Dağlıq Qarabağa qayıtsa da, bütün hallarda bölgədə nisbət ermənilərin xeyrinə olacaq. Bu nisbətdə keçirilən referendumun nəticəsi isə əvvəlcədən bəllidir. Ona görə də hazırda danışıqlar dalana dirənib və cəbhə bölgəsində atəşkəsin pozulması hallarına tez-tez rast gəlinir.

İlham Əliyev 2009-cu ilin noyabr ayında məcburi köçkün ailələri üçün inşa olunmuş yaşayış kompleksinin istifadəyə verilməsi mərasimindəki çıxışında Dağlıq Qarabağ probleminin diplomatik yolla həllinin mürəkkəbləşdiyini açıq etiraf etdi. Prezidentin həmin çıxışından 4 nəticə çıxarmaq mümkün idi:

1. Ermənistanın mövqeyi sərtləşib və danışıqlarda geriləmə müşahidə olunur, İrəvan vaxtı uzatmaqda maraqlıdır;

2. Erməni lobbisinin təsiri altında olan beynəlxalq birlik Qarabağ münaqişəsinin həlli üçün səylərini artırmır;

3. Minsk Qrupunun fəaliyyəti nəticə vermir;

4. Bu vəziyyətdə Azərbaycan Ermənistana siyasi, iqtisadi və hərbi təzyiqini artırmaqda davam edəcək.

İlham Əliyev Ermənistanın real əhalisinin 1 milyon 700 min nəfər təşkil etdiyini, Azərbaycanın əhalisinin isə 10 milyona yaxınlaşdığını xatırlatdı. O, iqtisadiyyatımızın Ermənistanın iqtisadiyyatından 7 dəfə, gələcəkdə isə 15 dəfə böyük olacağını, Ermənistanın bütün regional layihələrdən təcrid edildiyini dilə gətirdi.

Ancaq bu gerçəklik Ermənistanı narahat etmir, strateji düşüncə ona yaddır, İrəvan tarixən ona miras qalan separatizmin əsirinə çevrilib. İrəvan yaxın keçmişdə ona diplomatik kanallarla təklif edilən və Ermənistana iqtisadi səmərə və qazanc gətirəcək regional layihələrdən də məhz separatizmdən qurtula bilmədiyinə görə imtina etmişdi. Halbuki, bu regional layihələr onu Azərbaycanla yanaşı bölgənin başlıca dövlətlərindən birinə çevrilə bilərdi. Gürcüstanın Bakı-Tiflis-Ceyhan və

Bakı-Tiflis-Ərzurum boru xətlərindən və gələcəkdə Bakı-Tiflis-Qars dəmir yolundan qazandığını və qazanacağını bu gün Ermənistan qazana bilərdi. İrəvana bu istiqamətdə həm Bakı, həm də Qərb dövlətlərinin paytaxtlarından lazımi mesajlar göndərilmişdi. Ancaq Ermənistan fərqli yol seçdi.

Ermənistan hazırda dirənməkdə davam edir. Həll planının 95 faizinin tərəflərlə razılaşdırıldığını deyən həmsədrlər status məsələsində ilişib qalıblar. Elə bütün anlaşılmazlıqlar, danışıqların dalana dirənməsi məhz həmin 5 faizlə – Dağlıq Qarabağın statusunu müəyyənləşdirəcək referendumun tarixi ilə bağlıdır. Təkcə bu maddə bütün digər maddələrin tamamından ağır gəlir və təsadüfi deyil ki, "əgər anlaşmada bir müddəa razılaşdırılmayıbsa, demək, heç nə razılaşdırılmayıb" kəlməsi diplomatların dilindən düşmür.

Azərbaycan rəsmiləri Dağlıq Qarabağın statusu ilə bağlı çoxsaylı açıqlama və müsahibələrində bir fikrin üzərində də xüsusi dayanırlar: "Dağlıq Qarabağa dünyada mövcud olan ən yüksək muxtariyyət verilə bilər".

Bunun nə demək olduğunu anlamaq üçün dünyada mövcud olan 10 ən tanınmış muxtariyyət modelini tədqiq edərək, Dağlıq Qarabağla paralellər aparmağa çalışdım. Muxtar modellər haqqında ilkin yazılarım müxtəlif vaxtlarda www.lent.az saytında da yayınlanıb. Tədqiqat nəticəsində Avropa, Amerika və Asiya qitələrini əhatə edən bu fərqli modellərin ana xəttinin eyni olduğu qənaətinə gəldim: ilkin illərdəki separatçılıq, müstəqillik tələbləri, ardınca az və ya

çox sayda terror aktları və ən sonda birgə yaşamanın verdiyi üstünlüklərə qayıdış. Bu ana xətt erməni separatçılarının "bir münaqişə o birinə bənzəmir" deyiminin işə yaramadığını ortaya qoyur. Dağlıq Qarabağın bu 10 modeldən nə fərqi var? Əlbəttə, bir münaqişədə az, o birisində daha çox qan tökülə bilər, ancaq bütün 10 modeldə nəticə eynidir: geniş muxtariyyətin, xalqların, icmaların birgə yaşamasının üstünlükləri daha çoxdur. Bu, bölgədə dövlətlər arasındakı balansın qorunmasına, o cümlədən xalqlar arasındakı təmasların qopmamasına şərait yaradır. Təsadüfi deyil ki, Kvebek və ya Puerto-Rikoda keçirilən referendumlarda müstəqillik tərəfdarları hər dəfə məğlubiyyətə uğrayırlar.

Ermənistan hakimiyyəti muxtariyyətlərin hər hansı birində müstəqilliklə bağlı referendum keçirildiyi zaman bu modellərə müraciət edir. Ancaq göründüyü kimi, bu referendumlar heç də hər zaman separatçıların istədiyi kimi nəticələnmir. Çünki xalqların illərlə birgə yaşaması və bölgədə inam atmosferinin formalaşması nəticəsində müstəqilliyə ehtiyac duyulmur. Azərbaycanın da istəyi budur ki, əvvəlcə işğal altındakı torpaqlar boşaldılsın, keçmişdəki əlaqələr bərpa olunsun, iki xalq arasında inam atmosferi formalaşsın, Dağlıq Qarabağ erməniləri muxtariyyətin geniş səlahiyyətlərindən yararlansınlar ki, gələcəkdə heç referenduma ehtiyac qalmasın, ermənilər müstəqilliyin uçuruma, yeni müharibə və qırğınlara yol açdığını anlasınlar.

Erməni separatçılarının hazırda istinad etdiyi yeganə beynəlxalq təcrübə Kosovodur. Bu bölgənin müstəqilliyi bir çox Qərb dövləti tərəfindən tanındıqdan və BMT-nin Haaqa Məhkəməsi də Kosovonun müstəqilliyinin elanının beynəlxalq qanunların pozulmaması kimi qiymətləndirdikdən sonra İrəvan hərəkətlənib. Ermənistan hakimiyyəti Kosovonun Dağlıq Qarabağ üçün örnək ola biləcəyini iddia edir. Ancaq Rusiya qıcıqlanmasın deyə, İrəvan Kosovonun müstəqilliyini də indiyə qədər tanımayıb. Bu, Dağlıq Qarabağın "müstəqilliyi" uğrunda çarpışan Ermənistanın həmin "müstəqilliyi" indiyə qədər tanımamasına bənzəyir. Ermənistanın siyasi çevrələrində onu da yaxşı anlayırlar ki, Kosovonun müstəqilliyinin daima örnək kimi göstərilməsi qonşu Gürcüstanın parçalanmasına yaşıl işıq yandırılması deməkdir. Türkiyə və Azərbaycanın ardından Gürcüstanla da münasibətlərin pozulması Ermənistanın indiki çətin vəziyyətini bir az daha ağırlaşdırar.

Qərb Kosovonun müstəqilliyini tanıdığı kimi, Rusiya da əlinə düşən fürsətdən istifadə edərək Abxaziya və Cənubi Osetiyanın "müstəqilliklərini" tanıyıb. Bununla Qərbin Kosovo üçün "unikal" həll yolu adlandırdığı müstəqilliyi Kreml "universal", yəni hamı üçün örnək ola biləcək həll yoluna çevirməyə çalışıb. Ancaq Kosovo Dağlıq Qarabağ üçün presedent ola bilməz. Qərb dövlətlərinin liderləri və diplomatları bunu dönə-dönə vurğulayırlar. Kosovonun alban əhalisi vaxtilə Serbiyanın etnik təmizləməsinə məruz qalıb və bu amil Kosovonun müstəqilliyinin tanınmasında vacib amilə

çevrilib. Bu kimi qərarlara keçmiş Yuqoslaviya hakimiyyətinin Balkanlarda törətdikləri qətliamlar da təsir edib. Kosovodan fərqli olaraq Dağlıq Qarabağda azərbaycanlılar etnik təmizlənməyə məruz qalıblar, ona görə də iki fərqli bölgə arasında paralellər aparmaq yersizdir.

Separatizmlə üzləşən dövlətlərin, o cümlədən Azərbaycanın dünyanın müxtəlif bölgələrindəki muxtariyyətlərə artan marağı labüddür. Bu modellərin öyrənilməsinə və tədqiqinə ehtiyac var. Dünyanın tanınmış simalarından Dalay-Lamanın 2009-cu ildə İtaliyaya səfəri zamanı xüsusi olaraq Cənubi Tirola yollandığını xatırlatmaq lazım gəlir. Tibetin muxtariyyəti uğrunda mübarizə aparan Dalay-Lamanın bölgəyə səfərinin məqsədi İtaliyaya bağlı muxtar əyalətdə xalqların necə birgə yaşamasının nümunəsi ilə yerindəcə tanış olmaq idi. Bu və bu kimi təcrübələrin öyrənilməsinə erməni separatçılarının da ehtiyacı var. Çünki sonda Dağlıq Qarabağa veriləcək status bu kitabda nəql edilən 10 modelin statusundan artıq olmayacaq.

# ALAND ADALARI – ƏN OPTİMAL MUXTARİYYƏT STATUSU




Dünyada Dağlıq Qarabağ münaqişəsinin həllinə uyğun mövcud olan modellər haqqında danışdıqda ən çox Aland adaları misal çəkilir. Qərbin bir sıra ekspert dairələrində Dağlıq Qarabağın gələcək statusunu əsasən bu modellə müqayisə edirlər. Təsadüfi deyil ki, ATƏT-in Parlament Assambleyasının Dağlıq Qarabağ üzrə xüsusi təmsilçisi Qoran Lenmarker bir neçə il öncə hazırladığı hesabatda Aland modelinin Dağlıq Qarabağ münaqişəsinin həllində əsas kimi götürülə biləcəyini irəli sürmüşdü.

Aland modelinin öyrənilməsi və bunun Dağlıq Qarabağ münaqişəsinin həllinə mümkün proyeksiyası ilə bağlı adada müxtəlif vaxtlarda konfrans və seminarlar təşkil olunub. Bu tədbirlərdə bir araya gələn azərbaycanlı ekspertlər Aland modelini nümunə götürülə biləcək işlək bir mexanizm kimi qəbul etsələr də, erməni ekspertlər adətən bu modelin Cənubi Qafqaza uyğun olmadığını iddia ediblər. Onların fikrincə, modern və tolerant Avropada mümkün olanı Cənubi Qafqazda tətbiq etmək mümkün deyil. Başqa sözlə, əgər Avropadakı xalqlar muxtariyyətlərdə iç-içə rahat yaşayırlarsa, Cənubi Qafqazda dəqiq sərhədlər cızılmalı və nəticədə hərə

öz evində yaşamalıdır. Ermənistandakı dairələrin məhz bu yanaşması onların Cənubi Qafqazda sülhə nail olmaq istəklərini heçə endirir. Çünki sənin cızmaq istədiyin sərhəd bir başqasının torpaq bütövlüyünü zədələyir, buna isə heç bir dövlət razılaşmaz. Nəticədə hamının rahatlığı pozulur. Ermənistanın siyasi dairələri və ekspertləri Dağlıq Qarabağ üçün yalnız müstəqillik tələb etsələr də, Aland adalarında təşkil olunan toplantılarda əsl muxtariyyətin nə demək olduğunu avropalı ekspertlərin dilindən öyrənirlər. 2006-cı ildə Aland adasında qatıldığım konfransda Avropa Şurası Parlament Assambleyasının Azərbaycan üzrə keçmiş həmməruzəçisi isveçrəli Andreass Qrossun məruzəsini dinlədim. Vaxtilə İsveçrə parlamentində "erməni soyqırımı" qətnaməsinə səs verdiyindən onun Dağlıq Qarabağ münaqişəsinin həllində də qərəzli ola biləcəyi düşünülə bilərdi. Ancaq Qross həmin konfransda ermənilərə müraciət edərək, Dağlıq Qarabağa Alanddakına bənzər muxtar statusun verilməsini problemin ən uyğun həlli adlandırmışdı. O, nə dediyinin fərqində idi. Çünki vaxtilə Alandın statusu ilə bağlı geniş araşdırmalar aparan Qross Azərbaycan üzrə həmməruzəçi olduğu illərdə Dağlıq Qarabağ münaqişəsi haqqında da kifayət qədər məlumat toplamışdı.

Aland – Baltik dənizində yerləşən irili-xırdalı 8 min adadan ibarətdir. İnsanlar yalnız böyük adalarda məskunlaşıblar. Əhalisinin böyük əksəriyyətini isveçlilərin təşkil etdiyi adalar 1808-ci ilədək İsveç Krallığının tərkibində olub. Həmin il İsveç müharibədə Rusiyaya məğlub olduğundan Aland adalarını və Finlandiyanı bu imperiyaya vermək məcburiyyətində qalıb. 1917-ci ildə Rusiya imperiyası dağıldıqdan sonra Finlandiyanın müstəqilliyi beynəlxalq birlik tərəfindən tanınıb. Həmin il Aland adalarının isveçli sakinləri İsveçlə

qovuşmağa çalışırlar. Ancaq Finlandiya onların öz müqəddəratlarının təyininə qarşı çıxır. Adada imzatoplama kampaniyası keçirilir, eyni zamanda gizli təşkilatlar yaranmağa başlayır. Burada silahlı qarşıdurma olmasa da, Finlandiya polisi bir qrup separatçı isveçlini həbs edir. 1921-ci ildə Millətlər Liqası Aland adalarını Finlandiyanın ərazisi elan edir. Qərarda Finlandiyadan ada sakinlərinin dillərinin, adət-ənənələrinin və mədəniyyətlərinin qorunması istənilir. Finlandiya ilə İsveç bu qərarın birgə yerinə yetirilməsi mexanizmi üzərində çalışmalara başlayırlar.



İsveçlə Finlandiya arasında bağlanmış müqaviləyə əsasən, Aland əhalisin dilini, mədəniyyətini, adətlərini saxlamaq hüququ alır və bununla da assimilyasiya olunmaq təhlükəsi aradan qalxır. İsveç adalardakı isveçlilərin təhlükəsizliyinə və soydaşları ilə maneəsiz əlaqə yaratmağa təminat alır. 1922-ci il özünüidarə qanununa əsasən, yerli parlament – laqtinq –

adaların daxili işləri və büdcə haqqında qanun qəbul etməklə yanaşı, həm də hökuməti təyin edir. Finlandiya konstitusiyasına uyğun olaraq, Finlandiya parlamenti yalnız Aland adaları laqtinqinin icazəsi ilə özünüidarə qanunlarına dəyişikliklər edə bilər. Laqtinqin hüquqi səlahiyyətləri təhsil və mədəniyyəti, səhiyyə və iqtisadiyyatı, nəqliyyatı, kommunal təsərrüfatı, polisi, poçtu, radio və televiziyanı əhatə edir. Bu sahələr üzrə Alandın suveren dövlət səlahiyyətləri var. Qalan qanunvericilik səlahiyyətlərinin hamısı – xarici siyasət, mülki məcəllənin əsas hissəsi, məhkəmə və cinayət hüququ, gömrük və pul dövriyyəsi Finlandiyanın səlahiyyətlərinə daxildir.

Aland əhalisinin mənafeyini qorumaq üçün Finlandiya parlamentinə arxipelaqdan bir deputat seçilir. Adaların qubernatorunu laqtinqin razılığı ilə Finlandiyanın prezidenti təyin edir. Qubernatorun səlahiyyəti Aland Adaları Nümayəndələr Şurasına (Şura paritet əsaslarla formalaşır) başçılıq etməkdən və laqtinqin sessiyalarını açıb-bağlamaqdan ibarətdir.

İqtisadiyyat sahəsindəki münasibətlər də sadə quruluşa malikdir: Finlandiya hökuməti vergiləri, gömrük rüsumlarını və başqa ödəncləri bütün ölkədə tətbiq edilən qaydalarla yığır. Arxipelaqın xərcləri dövlət büdcəsindən ödənir. Dövlət öz borcunu çıxandan sonra gəlirlərin bir hissəsini arxipelaq üçün ayırır. Qalan məbləği isə laqtinq büdcə maddələri üzrə bölüşdürür.

Finlandiya prezidentinin laqtinqin qəbul etdiyi qanunlara veto qoymaq hüququ var. Prezident ona göndərilmiş qanunlara yalnız iki halda – adaların parlamenti öz səlahiyyət həddini aşanda və ya qəbul edilmiş qanun Finlandiyanın daxili və xarici təhlükəsizliyinə qorxu yaradanda veto qoya bilər.

Adalarda yaşamaq hüququ həm də vətəndaşlıq hüququ sayılır. Adalarda doğulan və valideynlərindən biri Aland və-

təndaşı olan uşaq bu hüquqa malikdir. Alandlılar eyni vaxtda həm də Finlandiya vətəndaşlarıdır. Arxipelaqa köçüb orada 5 il yaşayan və İsveç dilini bilən hər bir Finlandiya vətəndaşına Aland vətəndaşlığı verilir. 5 il kənarda yaşamış ada sakini isə vətəndaşlığını itirir.

Daşınmaz əmlaka malik olmaq hüququna qoyulan məhdudiyyətlər torpaq sahələrini alandlıların mülkiyyəti kimi möhkəmlətmək arzusu ilə izah olunur. Aland vətəndaşı Finlandiya ordusunda xidmət etmək mükəlləfiyyətindən azaddır. Adalarda hərbi hissə və qurğular yerləşdirmək yasaqdır.

Aland Skandinaviya ölkələri ilə birbaşa əməkdaşlıq edə bilir. Skandinaviya ölkələri Nazirlər Şurasının işində Aland hökuməti də iştirak edir.

Xarici siyasət Finlandiya hökuməti və parlamentinin səlahiyyətinə daxildir. Lakin Finlandiya Alandın daxili işlərinə təsir göstərə biləcək beynəlxalq müqavilə imzaladıqda bu müqavilənin qüvvəyə minməsini laqtinqlə razılaşdırmalıdır.

Beləliklə, Aland modelini Dağlıq Qarabağ münaqişəsinin həlli üçün tətbiq etsək, bölgənin yerli parlamenti daxili məsələlər və büdcə ilə bağlı qərarlar qəbul edə və hökuməti formalaşdıra bilər.

Dağlıq Qarabağ parlamenti və hökumətinin fəaliyyət sahələri bunlardan ibarət ola bilər:

– Təhsil və mədəniyyət;
– Səhiyyə;
– İqtisadiyyatın bəzi sahələri;
– Nəqliyyat;
– Kommunal təsərrüfat;
– Polis;
– Poçt xidməti;
– Radio və televiziya.

Aland modelinə əsasən, Dağlıq Qarabağ aşağıdakı səlahiyyətləri Azərbaycan Prezidenti və parlamentinə həvalə edir:

– Xarici siyasət;

– Məhkəmə və cinayət hüququ;

– Vətəndaş kodeksinin böyük hissəsi;

– Gömrük və pul dövriyyəsi.

İqtisadiyyat sahəsində tərəflər arasında münasibətlər belə qurula bilər: Azərbaycan hökuməti ölkə üzrə olduğu kimi, Dağlıq Qarabağda da vergiləri yığır, sonra dövlət büdcəsindən müəyyən edilmiş əsasda yerli büdcəyə ayırmalar edir. Ayrıca, Dağlıq Qarabağ parlamentinin qəbul etdiyi qərarlar Azərbaycan prezidentinə göndərilir. Alandda olduğu kimi, Azərbaycanda da dövlət başçısı iki halda veto hüququndan istifadə edə bilər: əgər yerli parlament hüquqlarını aşıbsa və ya qəbul edilən qanun Azərbaycanın daxili və xarici təhlükəsizliyinə ziddirsə. Aland modelinə görə, Dağlıq Qarabağ sakinləri Azərbaycan ordusunda xidmətdən azad edilə bilərlər. Bölgədə hərbi hissələr yerləşdirmək və istehkamlar qurmaq qadağandır. Dağlıq Qarabağ Ermənistanla əməkdaşlıq hüququna malikdir.

Bir sözlə, Aland modelinin tətbiqi halında böyük idarəetmə hüququ qazanan Dağlıq Qarabağ Azərbaycan ərazisi kimi tanınır, Ermənistanla sıx əlaqələr qurur və bölgə silahsızlaşdırılır.

Əslində Aland modeli Azərbaycan Konstitusiyasının Naxçıvana verdiyi hüquqlardan çox deyil. Sadəcə, Dağlıq Qarabağda ermənilərlə azərbaycanlılar birgə yaşayacaqları üçün Aland modelinin tətbiqi ətrafında əlavələrə ehtiyac olacaq. Məsələn, Dağlıq Qarabağ parlamenti və hökumətinin formalaşdırılmasında azərbaycanlıların iştirakı mexanizmi və bölgə polisindəki nisbəti müəyyənləşdirilməlidir.

# TATARISTAN MODELİ İQTİSADİ RİFAH DEMƏKDİR




Dağlıq Qarabağ münaqişəsinin həlli haqqında danışılarkən, zaman-zaman Tatarıstan modelinə də istinad edilir.

1996-cı ildə Bakıya səfəri zamanı Tatarıstan prezidenti Mintimer Şaymiyevə respublikasının statusu haqqında sual verildikdə, o bunları demişdi: “Tatarıstan çox şey əldə etmişdir. Biz Rusiyanın dövlət hakimiyyəti orqanları ilə ilk müqavilə imzalamağa nail olmağımızla yeni Rusiyada yeni federativ münasibətlərin başlanğıcını qoya bilmişik. Bundan sonra respublikamızın unitar dövlət kimi inkişaf etmək yolu başlamışdır. Lakin ən dəyərlisi budur ki, münaqişə vəziyyəti Rusiya Federasiyasının bütövlüyü pozulmadan aradan qaldırılmışdır. Ona görə də istənilən demokratik dövlət qurmaq prosesində onun bütövlüyünü pozmadan çox şeyə nail olmaq mümkündür. Respublikamızın dünyada "Tatarıstan modeli" adlandırılan nümunəsindən digər regionların və respublikaların dövlət quruculuğunda da istifadə edilə bilər”.

Rusiya Federasiyasının mərkəzində yerləşən və 4 milyona yaxın əhalisi olan Tatarıstanda 70-dən çox millət yaşayır. Əhalinin əksər hissəsini tatarlar və ruslar təşkil edir. SSRİ dağılmağa başladığı ərəfədə Tatarıstan cəld tərpənərək, statusunu artırmağa nail oldu. Rusiya Federasiyasının tərkibində muxtar respublika olan Tatarıstan 1990-cı il avqustun 30-da

dövlət suverenliyi haqda bəyannamə qəbul etdi. Suverenlik haqqında bəyannaməyə görə, bölgə rəsmən Tatarıstan Respublikası adlandırılır.

Həmin illərdə Çeçenistanda da suverenlik uğrunda mübarizə başlamışdı. Lakin Çeçenistandan fərqli olaraq, Tatarıstandakı qüvvələr Moskva ilə qarşıdurmaya getmədən saziş imzalamağa çalışırdılar. Tatarıstan hakimiyyəti Rusiyanın mərhum prezidenti Boris Yeltsinin "Nə qədər müstəqillik götürə bilirsiniz, götürün" açıqlamasından yola çıxaraq, Kremllə münasib şərtlər çərçivəsində saziş imzalamağa müvəffəq oldu.

Bəlkə də 1990-cı illərin başlanğıcında Rusiyada siyasi və iqtisadi qarmaqarışıqlıq olmasaydı, Tatarıstan üçün istədiyi nəticəni əldə etmək çətin olardı. Çünki illər sonra Rusiyada hakimiyyətə gələn Vladimir Putin Tatarıstan muxtariyyətinin hüquqlarını bir qədər daraltmağa çalışdı. Məsələn, Tatarıstan prezidenti artıq ümumxalq səsverməsi ilə seçilmir, onu yerli parlamentin formal təsdiqi ilə Rusiya prezidenti təyin edir. Buna baxmayaraq, yerli hakimiyyətin Tatarıstanın idarəçiliyindəki böyük səlahiyyətinə toxunulmayıb.

Tatarıstanın suverenlik aktında yazılıb ki, Tatarıstan Respublikasının statusu Tatarıstan Respublikası və Rusiya Federasiyasının birgə razılığı olmadan dəyişdirilə bilməz. Eyni zamanda Tatarıstan Respublikası ərazisinin sərhədləri onun razılığı olmadan dəyişdirilə bilməz.

Tatarıstan Respublikası öz səlahiyyətləri çərçivəsində müstəqil xarici iqtisadi əlaqələrdə iştirak edir. Tatarıstanın xarici ölkələrdə iqtisadi nümayəndəliklər açmaq hüququ var. Sənədin digər maddəsində Tatarıstan Respublikasının Konstitusiyası və ona düzəlişlərin Tatarıstan Respublikası Dövlət Şurasında və ya referendum yolu ilə qəbul edildiyi bildirilib.

Suverenlik aktının 4-cü maddəsi Tatarıstanın böyük səlahiyyətə malik olduğunun əyani göstəricisidir: “Tatarıstan Respublikası Rusiya Federasiyası və Rusiya Federasiyası ilə onun subyektlərinin birgə səlahiyyətləri xaricində öz hüquq tənzimlənməsini, o cümlədən qanunların və digər normativ hüquqi aktların qəbulunu aparır. Federal qanun və normativ hüquqi aktlarla yerli qanun və normativ aktlar ziddiyyət təşkil etdikdə Tatarıstan Respublikasının qəbul etdiyi normativ hüquqi akt qüvvədə olur”.



Başqa bir maddədə Tatarıstan Respublikasının öz səlahiyyətləri çərçivəsində xarici dövlətlərlə müstəqil xarici və xarici iqtisadi əlaqələr qurması, beynəlxalq razılaşmalar bağlaması, nümayəndəliklər yaratması və beynəlxalq təşkilatların işində iştirak etməsi hüququ göstərilib.

Tatarıstan Respublikasında dövlət dili tatar və rus dilidir.

Tatarıstan Respublikasının dövlət gerbi, bayrağı və himni var.

Rəsmi Bakı 1994-cü ildən Tatarıstan modelinə maraq göstərir. Bu model haqqında son dəfə Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov danışmışdı. O, 2008-ci ilin iyun ayında Sankt-Peterburqda Rusiyanın vasitəçiliyi ilə erməni həmkarıyla keçirdiyi görüşdən sonra jurnalistlərə açıqlamasında belə demişdi: "Dəfələrlə Ermənistana çatdırmışam ki, dünyada muxtariyyətin hansı modeli varsa, gəlin, onun üzərində işləyək. İstəyirsiniz, Tatarıstan variantını götürək. İstənilən model üzərində işləməyə hazırıq». Nazirin bu açıqlaması xeyli müddət müzakirə mövzusu olmuşdu.

Elmar Məmmədyarovun Tatarıstanı misal çəkməsi daha çox Moskvaya ünvanlanmış dolayı ismarıc idi: "Özündə tətbiq etdiyin mexanizmi başqası üçün də məsləhət bil". Ancaq Kreml bu mesajı soyuq qarşıladı. Rusiyalı politoloqlar Tatarıstanın muxtariyyət modelinin Dağlıq Qarabağa uyğun gəlmədiyini iddia etdilər. Onların fikrincə, Tatarıstanda hərbi konfliktin və münaqişə qurbanlarının olmaması nəzərə alınmalıdır.

Bu yanaşma Moskvanın Dağlıq Qarabağ probleminin ədalətli həllində maraqlı olmadığını bir daha büruzə verir. Kreml Tatarıstanın timsalında özünə rəva gördüyünü Azərbaycana rəva görmür. Tatarıstan indiki yüksək statusunu qansız-qadasız qazansa da, ortada yerlə-yeksan edilən Çeçenistan örnəyi var. Oradakı müharibə qurbanlarının sayı Qarabağdakından xeyli çoxdur. Buna baxmayaraq, bu gün ram edilən Çeçenistan Rusiyanın tərkibində varlığını sürdürür və onun bugünkü statusu Tatarıstanın statusundan yüksək deyil.

Odur ki, Şaymiyevin də qeyd etdiyi kimi, Tatarıstan modeli başqalarına, o cümlədən Dağlıq Qarabağa uğurlu örnək ola bilər. Dağlıq Qarabağın Tatarıstanın statusuna

malik olması müstəqil iqtisadi siyasət yürütməsi, iqtisadi sahədə müstəqil xarici razılaşmalar imzalaması, xarici ölkələrdə iqtisadi nümayəndəliklər açması, yerli idarəetmə institutları formalaşdırması və qəbul edilən qanunların Azərbaycan qanunvericiliyi ilə uzlaşdırılması, bir sözlə, yerli hakimiyyətin böyük idarəçilik səlahiyyətlərinə malik olması deməkdir.

Maddələrdən də göründüyü kimi, Tatarıstan daha çox iqtisadi müstəqilliyə malikdir. Çünki o, Rusiyanın tərkibində olan ən varlı bölgələrdəndir. Rusiyanın bir neçə nəhəng zavodu Tatarıstanda yerləşir, ayrıca, bölgə enerji resursları ilə zəngindir. Tatarıstan qazancının böyük hissəsini özündə saxlayır və bu amil bölgənin inkişafında önəmli rol oynayır. Dağlıq Qarabağın iqtisadiyyatında isə kənd təsərrüfatı istisna olmaqla, öyünəcək elə bir qazanclı sahəsi yoxdur. Bu isə o deməkdir ki, kənar yardıma ehtiyac duymayan Tatarıstandan fərqli olaraq, Dağlıq Qarabağa Azərbaycan büdcəsindən önəmli ayırmalar da mümkündür və bu, bölgənin yekun statusunda da öz əksini tapa bilər.

## KRIMIN STATUSU: ORTAQ MƏXRƏCİN MƏHSULU



Krım yarımadası təbiəti ilə göz oxşayır. Onun sahilləri, müalicəvi havası illər boyu sovet insanlarını cəlb edib. 2000-ci ildə Krımda olarkən, ilk baxışdan məndə bu diyarın problemsiz həyat sürdüyü təsəvvürü yaranmışdı. Ancaq yarımadanı gəzərkən, insanlarla təmasda olarkən, Krımla bağlı qəzet və internet səhifələrindən oxuduğum, televiziya ekranlarından izlədiyim problemlərin varlığına bir daha əmin oldum. Doğrudur, bu problemlər açıq qarşıdurma səviyyəsinə çatmır, ancaq adadakı rus separatçılığının əlamətlərinə, Krım tatarlarının torpaq problemi və digər bu kimi məsələlərə şahidlik etmək mümkündür.

Krımın coğrafi mövqeyi və təbiəti müxtəlif dövrlərdə bölgəni işğalçıların hədəfinə çevirib. Krımın ilk sakinləri qədim kimmerlər sayılır. VII əsrdə yarımada irandilli skiflər tərəfindən işğal olunduqda kimmerlər dağlıq ərazilərə köç etmək məcburiyyətində qalıblar. Elə bu əsrdən başlayaraq Krım yunanların diqqətini cəlb edib və onlar yarımadada ilk koloniyalarını salıblar. Yunanlar yarımadanı Tavrida adlandırıblar və bu addan XX əsrin əvvəllərinə qədər istifadə olunub. Krımdakı ilk dövlət Bosporus kimi tarixə keçib. Bu dövlət Roma imperiyasının tabeliyində olub. Sonralar Krımı

ard-arda qotlar, hunlar, bulqarlar, xəzərlər, Kiyev Rusu, Bizans, qıpçaqlar və monqollar ələ keçiriblər. Nəhayət, 1441-ci ildə Girəy nəslindən olan Hacı xan Krımda xanlıq qurub. 1475-ci ildə xanlıq Osmanlı imperiyasından asılı vəziyyətə düşüb.

Buna baxmayaraq, Krım xanlığı hələ bir neçə yüz il varlığını qoruyur. Rusiya imperiyası 1783-cü ildə Krımı istila edərək xanlığın mövcudluğuna son qoyur. 1768-1774-cü illər Rusiya-Türkiyə müharibəsi Krımın Rusiyaya birləşdirilməsi ilə nəticələnir. Bununla da yerli xalq olan Krım tatarlarının ağır günləri başlayır. Bu xalq etnik çoxluqdan tədricən etnik azlığa çevrilir. Yüz minlərlə tatar Rusiya imperiyasının idarəetməsindən qaçaraq Türkiyədə məskunlaşır. Rusiya imperiyasının Krımı nəzarətdə saxladığı illərdə yarımadaya xeyli sayda rus köçürülür. 1897-ci il üçün yarımadanın rus əhalisi 34 faizə qədər artırılaraq faktiki tatarların sayına çatdırılır, ukraynalılar isə Krımın cəmi 12 faiz əhalisini təşkil edir.

Rusiya imperiyasının dağılması ilə bolşeviklər 1918-ci ildə Krımı ələ keçirirlər. Həmin il martın 21-də bolşeviklər Krımda Tavrida Sovet Respublikasını elan edirlər. Ancaq bu respublikanın ömrü uzun olmur. Həmin illər davam edən Birinci Dünya müharibəsi Krımdan da yan keçmir və Almaniya qoşunları 1918-ci il aprelin 30-da yarımadaya daxil olur. Rus bolşeviklərinin lideri Lenin Krımın Almaniya qoşunları tərəfindən işğalına etiraz edərək Berlinə nota göndərir. Bu illərdə Ukrayna da Krıma göz qoyur. Rusiyada oktyabr çevrilişindən sonra Ukraynada da Xalq Respublikası qurulur. 1918-ci ilin fevral ayınadək mövcud olan Respublikanın silahlı liderlərindən olan Petlyura Krımdakı torpaqların Ukraynaya aid olduğunu elan edir.

Burada iki önəmli fakt diqqət çəkir. Birincisi, 1918-ci il Krımın ən qarışıq illərindən biri kimi tarixə düşür, çünki yarımada əldən-ələ keçirdi. İkincisi, Rusiyanın uzun əsrlik əsarətindən sonra ilk dəfə ukraynalılar bölgəyə iddialarını ortaya qoyurlar. Ancaq yarımada nə almanlara, nə də ukraynalılara qismət olur. 1919-cu ildə Almaniya qoşunları Krımı tərk etdikdən sonra yarımada bolşeviklərlə savaşan ağqvardiyaçı qoşunların nəzarətinə keçir. Krım ağqvardiyaçıların son şansı olur, çünki buna qədər onlar Rusiyanın digər məntəqələrini bir-birinin ardınca bolşeviklərə təslim edirlər. Ağqvardiyaçıların Krımdakı varlığı da uzun çəkmir. Onlar bolşevik ordusunun hücumuna tab gətirməyib gəmilərlə yarımadadan qaçırlar. Bolşeviklər 1921-ci ildə yarımada üzərində nəzarəti tam şəkildə ələ keçirirlər. Onlar müstəqil Krım Respublikasının yenidən təsisinə ehtiyac duymayıb, Rusiya Federasiyası tərkibində Krım Muxtar Sovet Sosialist Respublikası haqqında dekret imzalayırlar. Krımın ruslaşdırılması bolşeviklərin dövründə daha da sürətlənir. Ruslar əhalinin təxminən 60 faizini təşkil edir, yerli tatar və digər azsaylı xalqların nisbəti isə azalır. Bolşevik liderlərinin fikrincə, Krımda rusların sayının artırılması bu bölgədə milli məsələyə birdəfəlik son qoymalı idi. Bir növ yerli xalq yoxdursa, problem də yoxdur.

Bu yerdə Dağlıq Qarabağla bənzərlik aparmaq mümkündür. Rusiya imperiyası vaxtilə İrandan ermənilərin Qarabağa köçünü məhz ona görə təşkil etmişdi ki, gələcəkdə bu bölgə Rusiyanın maraqlarının xidmətində dayansın. İmperiyanın maraqlarına sadiq qalan və ona xidmət etməli olan köçmə ermənilər Qarabağdakı azərbaycanlıların müstəqil siyasətini neytrallaşdırmalı idi. Rusiyadan istiqamətlənən siyasət nəticəsində Krımda olduğu kimi Dağlıq Qarabağda da yerli xalq tədricən azlığa çevrildi.

1936-cı ildə qəbul olunan SSRİ Konstitusiyasına görə, Krım Muxtar Respublikası Rusiya Sovet Sosialist Respublikasının tərkibinə daxil edilir. Əsas qanunda Krımın dövlət və idarəetmə orqanlarının səlahiyyətləri müəyyənləşdirilir. Yarımadanın ali orqanı kimi Krım Ali Soveti təyin edilir. Krımın Konstitusiyası Rusiya Federasiyasının Konstitusiyasına uyğunlaşdırılır.

İkinci Dünya müharibəsi başlayan zaman Krım yenə mübarizə meydanına çevrilir. Faşist Almaniyası 1941-ci ildə Krımı işğal edir və 1944-cü ilədək nəzarətdə saxlayır. Sovet qoşunları yarımadanı azad etdikdən sonra yerli tatarlar növbəti dəfə tarixi faciə ilə üzləşirlər: Stalinin tapşırığı ilə onlar Orta Asiyaya sürgün edilirlər. Səbəb kimi isə tatarların guya işğalçılarla əməkdaşlıq etmələri göstərilir. Stalin rejimi eyni ittihamla çeçenləri də Orta Asiyaya sürgün edir. Sadəcə bir fərq var: çeçenlər sonralar vətənlərinə geri qayıda bilərdilər, tatarlar üçün isə qeyri-rəsmi qadağa uzun illər qüvvədə qalır.

1945-ci ildə SSRİ rəhbərliyi Krımın muxtariyyətini ləğv edir. Yarımada, sadəcə, vilayət statusu qazanır. Həqiqətən əgər artıq Krımda etnik xalq qalmayıbsa, muxtariyyət kimə və nəyə lazım idi?

1954-cü il  fevralın 19-da Krımın taleyində daha bir önəmli hadisə baş verir. SSRİ-nin o zamankı rəhbəri Nikita Xruşşov Krım vilayətini Rusiyanın tərkibindən çıxararaq Ukraynaya verir. Xruşşov bu qərarını Ukraynanın Rusiyaya birləşdirilməsinin 300 illiyi ilə (1654) əlaqələndirir. Krımın Ukraynaya verilməsi qərarında yarımadanın Ukraynaya yaxınlığı, iqtisadiyyatlar və xalqlar arasındakı bağlılıq əsas götürülür. SSRİ-nin varlığı dövründə müzakirə olunmayan bu qərar ittifaqın dağılması ilə rus tarixçi və millətçilərinin əsas müzakirə mövzularından birinə çevrilir.

SSRİ-nin dağılması ilə Krımda rus separatçılığı baş qaldırır. Moskva separatçılara açıq-aşkar dəstək verir. Halbuki, hələ 1990-cı il noyabrın 19-da Rusiya ilə Ukrayna arasında imzalanan anlaşmaya görə, tərəflər ərazi bütövlüklərinə hörmətlə yanaşacaqlarını bəyan etmişdilər. 1992-ci ildə Rusiya Ali Soveti təşəbbüslə çıxış edərək Krımla bağlı 1954-cü ildə qəbul olunan qərarın Konstitusiyaya uyğunluğu barədə məsələ qaldırır. Ukrayna parlamenti bu təşəbbüsü dərhal rədd edir. Ukrayna Rusiyanın Krıma iddialarını 1993-cü ildə hətta BMT Təhlükəsizlik Şurasının gündəliyinə çıxarmağa çalışır.




*Krımda rus separatçıların mitinqi*

Bu arada, Ukrayna ilə Krım arasında əsl qanunverici savaş başlayır: Krım Ali Soveti qanun qəbul edir, Ukrayna parlamenti onu rədd edir və əksinə. Krımdakı separatçılar və onların Rusiyadakı havadarları yarımadanı Ukraynadan qoparmaq üçün müxtəlif ssenarilərə əl atırdılar. Krımdakı rus millətçilər pasportlarına Ukrayna vətəndaşı ştamplarının vurulmasına etiraz edirdilər. Krım Ali Sovetində və idarəedici orqanlarda üstünlüyə malik olan ruslar Ukrayna Respublikasının qanunlarına müqavimət göstərirdilər.

Buna baxmayaraq, Krımla Kiyev arasındakı mübahisələr heç zaman silahlı qarşıdurma səviyyəsinə çatmadı. Doğrudur, yarımada bəzi qətllərə və mitinqlərdəki toqquşmalara şahidlik etdi, ancaq Krım Dağlıq Qarabağdakı separatçılığın acı təcrübəsini təkrarlamadı. Vaxtilə Dağlıq Qarabağdakı erməni separatçıları da Xankəndidə mitinqlərə çıxar və müstəqillik tələblərini irəli sürərdilər. Onlar bu çıxışlarla paralel olaraq azərbaycanlıların yaşadığı qonşu kəndlərə silahlı basqınlar təşkil edər və bununla da qətllərin, Dağlıq Qarabağ və Ermənistandan qovulan azərbaycanlıların sayı artardı. Krımda bunlar yaşanmadı.

1991-ci ildə Krımda referendum keçirilir və əhalinin 93 faizi Krım Muxtariyyətinin bərpasına səs verir. Ukrayna parlamenti Krımda keçirilən referendumun nəticəsinə hörmətlə yanaşaraq Ukraynanın tərkibində Krım muxtariyyətinə yaşıl işıq yandırır. 1992-ci ildə Krım Ali Sovetinin qərarı ilə yarımada Krım Respublikası adlanır. Bir il sonra Ukrayna parlamenti Krımla səlahiyyət bölgüsünə dair qanun qəbul edir. Ancaq Krımdakı separatçılar bunun az olduğunu düşünürdülər. Onlar 247 min nəfərin imzasını toplayaraq Krımın müstəqilliyi ilə bağlı referendum keçirməyi tələb edirlər.

Bu referendumun keçirilməsi qarşıdurmanı daha təhlükəli vəziyyətə çatdıra bilərdi. Ona görə də Krım Ali Soveti 1992-ci ilin iyul ayında qərar qəbul edərək referendumla bağlı təklifi gündəlikdən çıxarır, iki ay sonra isə qanunlar Ukrayna qanunvericiliyinə uyğunlaşdırılır. Ancaq Ukrayna bundan sonra hələ bir neçə il Krımda qəbul edilən bir sıra qanunu qüvvədən salmaqla məşğul olur.

Ukrayna parlamenti 1995-ci il martın 17-də "Krım Muxtar Respublikası" haqqında qanun qəbul edir. Bu qanunda Krımın siyasi deyil, ərazi muxtariyyətinə malik olduğu vur-

ğulanır. Adı çəkilən qanun ətrafında Kiyevlə Krım arasında yenidən mübahisə başlayır. Rusiya hakimiyyəti isə əvvəlkitək separatçılara altdan-altdan dəstək verirdi. SSRİ-nin dağılmasından sonra böyük hissəsi Rusiyaya qalan Qara dəniz donanmasının Ukraynaya bağlı Krımda yerləşməsi rəsmi Moskvanı qıcıqlandırırdı. Buna görə də o, donanmanın yerləşdiyi Sevastopol şəhərindəki separatçılara dəstəyini bir qədər də artırdı. İş o yerə çatmışdı ki, Moskva meri Yuri Lujkov Krıma gedərək separatçılara açıq dəstək verir və yarımadanın Rusiyaya bağlılığından danışırdı. Özü də bu proses Ukraynaya prezident Leonid Kuçmanın rəhbərlik etdiyi dövrdə baş verirdi. Söhbət o prezidentdən gedir ki, Qərblə Rusiya arasındakı seçimdə az da olsa ikinciyə üstünlük verir, qonşusuyla münasibətlərin normallaşmasına və inkişafına çalışırdı. Ona görə də məhz Kuçmanın dövründə Krım separatçıları "yerində oturduldu". Kuçma 1997-ci ildə Rusiya ilə imzaladığı "dostluq və əməkdaşlıq haqqında müqavilə" ilə buna nail oldu. Başqa sözlə, bu necə dostluq müqaviləsi ola bilərdi ki, Moskva sənədin ziddinə əvvəlkitək Krımdakı separatçılığı dəstəkləyərdi. Ayrıca, həmin illər separatizmlə mübarizə adı altında Moskvanın Çeçenistanda müharibə aparması Krım mövzusunda onun dilini qısa edirdi. Odur ki, zaman keçdikcə Krımda separatçılığın miqyası azalmağa başladı və radikal elementlər belə reallığı qəbul etmək məcburiyyətində qaldılar.

1998-ci il oktyabrın 21-də Krım parlamenti muxtar respublikanın Konstitusiyasını qəbul edir. Yeni Konstitusiyaya görə, Ukrayna Konstitusiyası və qanunları əsas götürülür, yerdə qalan səlahiyyətlər isə Krıma aid edilir. Əsas qanunda sosial-iqtisadi proqramların reallaşdırılması, mədəniyyət və digər sahələrin inkişafı səlahiyyətləri Krıma verilir.

Ancaq yarımadanın ədliyyə, prokurorluq və məhkəmə sistemi Ukraynaya bağlı olur. Ukrayna hakimiyyəti Rusiyanın istəyini nəzərə alaraq, yalnız Sevastopola xüsusi şəhər statusu verməyə razılaşır.

Bu illərdə Krım separatçıları ara-sıra varlıqlarını ortaya qoymağa çalışıblar. Ukraynada Qərbə meylli Viktor Yuşşenkonun prezidentliyi illərində Krım separatçıları ölkənin xarici və təhlükəsizlik siyasətinin əleyhinə çıxırdılar. Separatçılar 2008-ci ildə Krım sahillərində Ukrayna-NATO birgə hərbi təlimlərini pozmaq üçün bir neçə gün mitinq və küçə yürüşləri təşkil etmişdilər. Rusiya ilə sıx əməkdaşlığa meylli olan Viktor Yanukoviç Ukrayna prezidenti seçildikdən sonra isə hələ ki, Krım separatçılarından səs çıxmır. Çünki nəyəsə etiraz etmək üçün əsas yoxdur. Yanukoviç Rusiya ilə siyasi və iqtisadi əlaqələri gücləndirib, Qara dəniz donanmasının Rusiyaya kirayə müddətini 2042-ci ilə qədər uzadıb, Ukraynanın NATO-ya üzvlüyünü gündəlikdən çıxarıb və s.

Ukrayna-Rusiya münasibətləri normallaşsa və yarımadadakı separatizm indiki dövr üçün yatırılsa da, Krım tatarlarının problemləri həllini gözləyir. 1989-cu ilin statistikasına görə, ruslar 67 faiz, ukraynalılar 26 faiz, tatarlar isə Krım əhalisinin cəmi 2 faizini təşkil edirdisə, ötən dövr ərzində Orta Asiyadan köçən tatarların sayı tədricən artıb. Ukraynada bir-birini əvəzləyən hakimiyyətlər tatarların doğma torpaqlarına geri dönmək haqlarına hörmətlə yanaşsalar da, 20 ildən çoxdur ki, Krımda onlara torpaq verilməsi müxtəlif bəhanələrlə ləngidilir. 2010-cu il iyunun 24-də Ukrayna Prezident Administrasiyası binası qarşısına toplaşan və xüsusi olaraq Krımdan gələn yüzlərlə tatar nümayişçi əllərində “Xalqa torpaq”, “Krımın torpaq probleminə prezident nəzarət etsin”, “Bizə torpaq verməyən məmurlar məsuliyyətə cəlb olunsun”

kimi şüarlar daşıyırdı. Görünür, Krım rəhbərliyi tatarların sayının artmasından ehtiyatlandığı üçün onların problemlərinin həllini uzadır. Digər tərəfdən, yerli rus separatçılarından fərqli olaraq, Krım tatarları Ukraynanın ərazi bütövlüyünü dəstəkləyirlər.

Krımın muxtariyyət modeli Dağlıq Qarabağdakı erməni separatçılarının və İrəvanın "maraqlarına" cavab verməz. Əslində Krımda muxtariyyətin quru adı var, səlahiyyətlərin çoxu Ukraynaya aiddir. Digər yüksək statuslu muxtariyyətlərdən fərqli olaraq, Krım muxtariyyətinin nə xarici iqtisadi siyasət aparmaq, nə də müstəqil gömrük və polis orqanlarını formalaşdırmaq kimi funksiyaları var. Ancaq Krımın statusu Ukrayna ilə Rusiya arasındakı əməkdaşlığa əngəl deyil. İki ölkə arasındakı münasibətlər məhz Krımda separatçılığın artdığı dövrdə gərginləşmişdi. Separatizmi qidalandıran süni amillər ortadan qaldırılan kimi münasibətlər normal məcrasına qayıtdı. Fərqli sözləri Dağlıq Qarabağ separatçılığı haqqında söyləmək mümkündür. Bir anlığa təsəvvür edək ki, Dağlıq Qarabağda hadisələr Krımdakı kimi cərəyan edərdi, yəni bölgənin erməni əhalisi istəyini yalnız mitinq və toplantılar vasitəsilə dilə gətirər və statuslarının artırılması məqsədilə Bakı ilə danışıqlara baş vurardı. Əlbəttə, belə olan halda Rusiya zamanında Krım separatçılarını dəstəklədiyi kimi Ermənistan da Qarabağdakı separatçıları dəstəkləyəcəkdi. Ancaq bu proses heç olmazsa, danışıqlar masasının predmetinə çevrilərdi. Belə olan halda ortaq məxrəcə gəlmək də asan olardı. Ancaq erməni separatçıları başqa yolu seçdilər. Ona görə də indi Azərbaycanla Ermənistanın ortaq məxrəcə gəlməsi daha çətindir.

# KANADA SİLAHLI SEPARATİZMƏ BAŞ ƏYMƏDİ




Dünyanın müxtəlif bölgələrindəki separatçılar müstəqillik tələblərini adətən bu amillərlə izah edirlər: "Mərkəzi hökumət bizi ikinci sinif vətəndaş hesab edir", "Bölgə iqtisadiyyatının inkişafına və sosial problemlərin həllinə diqqət yetirilmir" və ya "Seçkili orqanlarımızın səlahiyyətləri azdır".

Kanadanın Kvebek əyalətində bu amillərin heç biri yoxdur. Əyalətin nə iqtisadiyyatı Kanadanın digər əyalətlərinin iqtisadiyyatından geri qalır, nə mərkəzi hökumət bölgənin problemlərinə biganədir, nə də seçkili orqanların səlahiyyətləri azdır. Buna baxmayaraq, insanların yaxşı yaşadığı, rifahının yüksək olduğu Kvebekdə də separatçılıq var və bölgənin Kanadadan ayrılaraq müstəqil dövlət kimi varlığı ara-sıra gündəmə gətirilir.

Kvebek Kanadanın ərazisinə görə birinci, əhalisinin sayına görə isə ikinci əyalətidir. Əhalinin sayı 8 milyon nəfərə yaxındır. Bu da Kanada əhalisinin 24 faizini təşkil edir. Kvebekin rəsmi dili fransız dilidir. Əyalət əhalisinin 80 faizi bu dildə danışır.

Kanada ilk dəfə 1534-cü ildə fransalı səyyah Jak Kartye tərəfindən tədqiq olunub. Ancaq sahilə enən komanda heyətinin bir çox üzvü müxtəlif xəstəliklərdən vəfat etdiyindən

Fransa uzun illər bu materikə maraq göstərməyib. Yalnız 1603-cü ildə Fransa Kanadaya növbəti səyyahını göndərib. Samuel de Şamplen Kanadada yerli hindu tayfaları ilə anlaşaraq Kvebek şəhərinin əsasını qoyub. Fransa kardinalı Rişelye 1627-ci ildə Yeni Fransa adlanan torpaqlara daha böyük heyət göndərməyə qərar verib. Ancaq o illər Fransa ilə Böyük Britaniya imperiyaları arasında müstəmləkələr uğrunda savaş getdiyindən Kvebek əldən-ələ keçib. Buna baxmayaraq, fransalı müstəmləkəçilər Kanadada irəliləməyə çalışıblar, bunun nəticəsində onlar 1642-ci ildə materikdə daha bir şəhərin – Monrealın əsasını qoyublar. Yeni torpaqlar Fransadan Kanadaya köçənlərin sayının tədricən artmasına şərait yaradıb. 1672-ci ildə Kanadada 7 minə yaxın fransalı yaşayırdı.

1756-1763-cü illərdə Böyük Britaniya ilə Fransa arasında davam edən yeddi illik müharibə Şimali Amerikadakı müstəmləkələrin gələcəyini müəyyənləşdirməli idi. İngilislər Yeni Fransanın varlığına son qoymaq istəyirdilər. Böyük Britaniya qoşunları əvvəlcə Monrealı, daha sonra Kvebeki ələ keçirdi. Fransa müstəqillik uğrunda Böyük Britaniya ilə savaşan ABŞ-a dəstək verməklə bu məğlubiyyətin əvəzini çıxdı. Böyük Britaniya Kanadada yaşayan fransalıları assimilyasiya etməyə çalışsa da, müvəffəqiyyət qazana bilmədi. Nəticədə 1774-cü ildə qəbul olunan Kvebek aktına görə, bölgədə yaşayan fransalıların vətəndaşlıq, din və dil hüquqları tanındı.

Bu illərdə Kanadada həm fransız, həm də ingilis separatçılığı baş qaldırır. London hər iki icma arasında ortaq məxrəc tapmağa çalışsa da, buna müyəssər olmur. Siyasi təlatümlər 1849-cu ildə özünün pik nöqtəsinə çatır, separatçılar Monrealda iclas keçirilən parlament binasını yan-

dırırlar. Vəziyyətdən çıxış yolu kimi parlament gah Torontoda, gah da Kvebekdə toplanırdı.

Nəhayət, 1867-ci il iyulun 1-də Kanada Konfederasiyası təsis olunur. Konfederasiya aktına görə Kvebek əyalət statusu qazanır, federal mərkəzlə əyalətlərin səlahiyyətləri dəqiqləşdirilir. Sənədin müəllifləri güclü Kanada dövlətinə tərəf çıxsalar da, bir xeyli səlahiyyət əyalətlərə verilir. Federal parlament Kanadanın müdafiəsi, xarici siyasəti, ticarəti və nəqliyyatına məsul idi. Əyalətlərin qanunverici orqanları isə təhsil, tibb, vətəndaş hüquqları, təbii ehtiyatlar, kənd təsərrüfatı və digər sahələrə cavabdeh idilər. Buna baxmayaraq, Kvebekin idarəçiləri ara-sıra separatçı tələblər səsləndirir, ya vergiləri azaltmağa, ya da müəyyən sahədə daha çox səlahiyyət əldə etməyə can atırdılar.

Kvebekdə 1960-cı ildə hakimiyyətə gələn Liberal Partiya tarixə "sakit inqilab" kimi keçən islahatlara baş vurur. Partiyada təmsil olunan gənc islahatçılar iqtisadiyyatın modernləşdirilməsi və fransızdilli mədəniyyətin dəstəklənməsi məqsədilə müxtəlif proqramların həyata keçirilməsinə başlayırlar. Onlar həm də Kvebekə daha çox muxtariyyət tələb edirdilər. Bu tələb paytaxt Ottavada etiraz doğurmur və Kvebek bəzi federal proqramlarda iştirakdan azad edilir. Ancaq paytaxtın həmin qərarı bu dəfə də ingilisdilli əyalətlərdə etiraz doğurur. Onlar bu cür ayrı-seçkilikdən şikayətçi idilər. Kvebekdəki radikal qruplar isə, əskinə, daha geniş muxtariyyət deyil, müstəqillik tələbini irəli sürürdülər. Hətta 1963-cü ildə fransızdilli radikallar Monrealın ingilisdilli məhəllələrinin birində bu məqsədlə partlayış törədirlər. Başqa sözlə, dünyanın müxtəlif bölgələrində separatçıların keçdiyi yolu Kvebek separatçıları da təkrarlamaq istəyirdilər. Mon-

realdakı partlayışla separatizmin leqal fəaliyyət göstərən qolu ilə yanaşı terror qolunun da var olduğu ortaya çıxdı.

Kanadanın federal hökuməti fransızdilli əyalətin artan iştahını həyata keçirməkdən boyun qaçırmırdı. 1969-cu ildə Kanadada qəbul olunan dil haqqında qanuna görə, dövlət idarələrində işləyənlər fransız dilini bilməli idilər. Ancaq bu kimi addımlar da radikal qruplara azlıq edirdi. 1970-ci ildə separatçılar əvvəlcə Monrealdakı Böyük Britaniya ticarət missiyasının rəhbərini oğurlayır, az sonra isə Kvebekin əmək nazirini qətlə yetirdilər. Separatçıların leqal fəaliyyətinə etiraz etməyən Kanadanın mərkəzi hakimiyyəti terrora baş əymədi. Hadisələrin bu istiqamətdəki inkişafı kvebekliləri də ciddi narahat edirdi. Odur ki, Kvebekin baş naziri Pyer Tyudo əyalətə qoşun yeridilməsinə razılıq verir və Kvebek Azadlıq Ordusuna məxsus terrorçular ələ keçirilirlər. Bununla da Kvebekdə terror yuvası darmadağın edilir.

Kvebekdə yaşanan bu olay bir daha göstərir ki, separatçı fəaliyyətin müəyyən həddi var. Əgər separatçılar söz azadlığı fonunda tələblərini irəli sürərək böyük status, lap elə müstəqillik tələb edirlərsə, mərkəzi hakimiyyət buna dözümlü yanaşaraq mövzunu masa arxasında müzakirəyə çıxara bilər. Yox əgər bu tələblər partlayışlar və qətllər vasitəsilə həyata keçirilməyə başlayırsa, mərkəzi hakimiyyətin yalnız bir yolu qalır: terror ocağını məhv etmək. Bu, özünə hörmət edən istənilən dövlət üçün keçərlidir. Silahlı separatizmə heç kim dözməz. London terrorçu İrlandiya Respublikası Ordusuna qarşı savaşırdı, Madrid isə günü bu gün də terrorçu bask qruplaşması olan ETA ilə mübarizə aparır. Buna baxmayaraq, həm Madrid, həm də London separatçı tələblərini leqal yolla dilə gətirən qruplarla danışıqlardan da qaçmır. Eyni sözləri Türkiyəyə də aid edə bilərik. Ankara insanları qətlə

yetirən terrorçu PKK ilə savaşsa da, kürdlərə daha çox hüquqların verilməsini tələb edən müxtəlif cərəyanlarla dialoqa hazırdır.

Kvebekdə terror beşiyindəcə boğulduqdan sonra separatizmi leqal səviyyəyə qaldıranlar yenə əvvəlki fəaliyyətlərinə qayıdırlar. 1977-ci ildə muxtar qurumda fransız dili haqqında yeni qanun qəbul edilir. Bu qanuna görə, Kvebekdə çalışan bütün iri şirkətlər məcburi şəkildə fransız dilindən istifadə etməli idilər. Ancaq bu tələb bir neçə iri şirkətin Kvebeki tərk etməsinə yol açır və bu, bölgə iqtisadiyyatına mənfi təsir edir.

Kvebekdə müstəqilliklə bağlı iki dəfə – 1980 və 1995-ci illərdə referendum keçirilib. Birincidə əhalinin təxminən 2\3 hissəsi müstəqilliyə “yox” deyib, digərində nisbət təxminən bərabərləşsə də, separatçılar yenə uğur qazanmayıblar. Bu da ondan xəbər verir ki, Kvebekdə radikal separatçı cərəyanlar bölgənin müstəqilliyinə çalışsalar da, fransızdilli əhalinin əksəriyyəti Kanadanın ərazi bütövlüyünün saxlanılmasının daha doğru yol olduğuna inanırlar. Kvebekin bugünkü səlahiyyətləri onsuz da kifayət qədərdir. Əyalət mülkiyyət və vətəndaş hüququ sahəsində istədiyi qanunları qəbul edir, məhkəmə, səhiyyə və təhsil sahəsi öz tabeçiliyindədir. Ayrıca, Kvebek hökumətinin və qanunvericilərinin istəyi əsasında Kanadanın mərkəzi hökuməti onlara daha çox səlahiyyət verməyə hazırdır.

# CƏNUBİ TİROL: REFERENDUMA EHTİYAC DUYULMAYAN GENİŞ MUXTARİYYƏT




2008-ci ildə Cənubi Osetiyada savaş başlamadan öncə Gürcüstan hakimiyyəti bu bölgə və Abxaziya üçün münasib status axtarışında idi. ATƏT hələ 1994-cü ildə Gürcüstan rəhbərliyinə və Cənubi Osetiya separatçılarına Cənubi Tirol modelini təklif etmişdi. ATƏT Cənubi Tirolun statusunun Cənubi Osetiya üçün yararlı olacağını düşünürdü. Ancaq həmin il bu təklif hər iki tərəfin etirazına səbəb olduğundan, Cənubi Tirol modeli gündəmdən düşdü. Cənubi Osetiya və Abxaziya separatçıları müstəqillikdən başqa alternativ eşitmək istəmirdilər.

Üstündən illər keçdikdən sonra Gürcüstan hakimiyyəti bu təklifə yenidən qayıtmaq məcburiyyətində qaldı. Ölkənin keçmiş xarici işlər naziri Qela Bejuaşvili rəsmi Tiflisin Cənubi Osetiya və Abxaziyaya Cənubi Tirol modelini təklif etdiyini bildirdi. Bu məqsədlə hər iki bölgənin təmsilçilərinin Cənubi Tirola səfər etdiklərini qeyd edən gürcü diplomat belə demişdi: “Bu, Gürcüstan üçün uyğun modeldir. Söhbət tam özünüidarəetmədən, resurslara nəzarətdən və federal idarəetmədə iştirakdan gedir”.

Cənubi Tirol İtaliyanın ərazisidir. Bölgədə alman dilli əhali üstünlük təşkil edir. Tirol özü Avstriyada yerləşir, paytaxtı İnsbruk şəhəridir. Ancaq Tirolun cənub hissəsi İtaliyaya məxsusdur. İtalyanlar bu bölgəni Bolsano adlandırırlar. Və bir də bitişik Trentino bölgəsi var ki, orada daha çox italyan dillilər yaşayırlar. Cənubi Tirol muxtariyyəti iki dildə danışan xalqın birgə yaşamasının bariz nümunəsidir.

Tirol XIV əsrdən başlayaraq Hasburqlar imperiyasının tərkibində olub. 1800-cü ildə İtaliya dövləti yarandıqda Trentinodakı italyanlar tarixi vətənləri ilə birləşmə tələbini irəli sürüblər. Trentinodan fərqli olaraq, Cənubi Tirolda alman dillilər çoxluq təşkil edirdi. 1910-cu ildə Cənubi Tirolda 220 min alman dilli və cəmi 7 min italyan dilli əhali yaşayırdı. Buna baxmayaraq, Birinci Dünya müharibəsinin sonunda – 1919-cu ildə Parisin yaxınlığındakı Sen-Jermendə imzalanan sülh müqaviləsinə görə, Trentino və Cənubi Tirol Avstriyadan alınaraq İtaliyaya verildi. Bu qərar bölgənin italyan dilli əhalisinə özmüqədərratını müəyyənləşdirmək hüququ verirdisə də, alman dillilər bundan məhrum edildiklərini düşünürdülər.

1922-ci ildə İtaliyada faşistlər hakimiyyətə gəldikdən sonra bölgədə yaşayan italyan dillilərin sayı sürətlə artmağa başladı. Faşistlər Cənubi Tirolda yerli təşkilatların fəaliyyətinə və bölgədə alman dilinin işlənməsinə qadağalar qoydular. Alman dillilərin əvəzinə italyan dillilər əyalətdəki vəzifələrə irəli sürüldülər. Maraqlıdır ki, Almaniya faşistlərinin lideri Adolf Hitlerlə İtaliya faşistlərinin lideri Benissimo Mussolini arasında 1939-cu ildə imzalanan anlaşmaya görə, cənubi tirollular ya Almaniyaya köçməli, ya da Romanın siyasətinə tabe olmalı idi. 1943-cü ildə Cənubi Tirolda 176 min etnik alman, 105 min italyan yaşayırdı. Yalnız İkinci

Dünya müharibəsinin tamamlanması ilə bölgədə durum dəyişdi.

Rəsmi Vyana 1946-cı ildə qalib dövlətlərə müraciət edərək Cənubi Tirolun İtaliyadan alınaraq yenidən Avstriyaya verilməsini istəyir. Böyük dövlətlər İtaliyanı məğlub etmələrinə baxmayaraq, Avstriyanın bu istəyini qəbul etmirlər. Bunun əvəzində Avstriya və İtaliya xarici işlər nazirləri Parisdə anlaşma imzalayırlar. Həmin anlaşmaya görə, Cənubi Tirol İtaliyanın tərkibində dil, siyasi, iqtisadi və mədəni muxtariyyət əldə etməli idi. 1948-ci ildə ikinci addım kimi Cənubi Tirol-Trentino bölgəsinin muxtar statusu qəbul olundu. Trentino bölgəsində italyanlar çoxluq təşkil etdiklərindən muxtar statusun işlək hala çevrilməsində hələ bir müddət problemlər yaşandı. Əyalət ilə Roma arasında münaqişəli hallar da qeydə alındı. 1960-cı ildə Cənubi Tirolda terror aktları baş verdi, İtaliyanın bölgədəki dövlət institutlarına hücumlar edildi.

Bölgədə gərginliyin artmasından çıxış edən Avstriyanın xarici işlər naziri Cənubi Tirol məsələsini BMT Baş Assambleyasının müzakirəsinə çıxarır. Assambleya 1960 və 1961-ci illərdə Cənubi Tirolla bağlı iki qətnamə qəbul edir. Bu qətnamələrə görə, Avstriya və İtaliya danışıqlara başlayaraq Cənubi Tirolla bağlı ziddiyyətləri ortadan qaldırmalı idilər. Danışıqlar nəticəsində 1969-cu ildə Cənubi Tirolun statusu ilə bağlı 137 maddəlik sənəd qəbul olunur. Bu sənəd bütün tərəfləri razı saldığından işlək bir mexanizmə çevrilir.

Yeni statusa görə, Cənubi Tirolla Trentino bölgələri ayrılır və birincidə alman dillilərin daha çox yaşadığı nəzərə alınaraq ona daha çox səlahiyyət verilir. Cənubi Tirol qanunverici və idarəetmə hüquqlarına malik olur. Bu illər ərzində bölgə liderlərinin mərkəzi hakimiyyətlə danışıqları nəticə-

sində Cənubi Tirolun statusu təkmilləşir. Nəhayət, Avstriya hökuməti 1992-ci ildə "Problemin həlli deklarasiyası" adlı sənəd qəbul edərək Cənubi Tirolla bağlı İtaliya ilə heç bir ərazi mübahisəsinin qalmadığını bəyan edir.

Bu gün Cənubi Tirolda həm alman, həm də italyan dillilərin hüquqları qorunur. Cənubi Tirolun geniş qanunverici və idarəetmə hüquqları var, xalq və kənd təsərrüfatı, turizm, dağ sənayesi, sosial və təhsil sahələrində qanunlar qəbul edilərək həyata keçirilir. Digər muxtariyyətlərdə olduğu kimi, xarici siyasət və müdafiə məsələləri mərkəzin tabeliyindədir. Yığılan verginin təxminən 90 faizi əyalətdə qalır, ayrıca İtaliyanın dövlət büdcəsindən də ayırmalar edilir. Başqa sözlə, Cənubi Tirol gəlirlərini istədiyi şəkildə idarə edir.



*Cənubi Tirol muxtar bölgəsinin prezidenti Luis Durnvalder Dalay-Lamanı hava limanında qarşılayır. İtaliya. 16 noyabr 2009-cu il.*

Status anlaşmasına görə, əgər Cənubi Tirolda qəbul olunan hər hansı qanun İtaliya qanunu ilə ziddiyyət təşkil edərsə, məsələ Konstitusiya məhkəməsində həll olunur. Cənubi Tirolda iki xalq arasında qarşıdurmanın yaranmaması üçün vəzifələrin böyük əksəriyyəti rotasiya prinsipi ilə müəyyənləşdirilir, yəni hər hansı vəzifəyə bir müddət alman dilli, sonra isə italyan dilli rəhbərlik edir. Hər hansı qanunun qəbulunda iki xalqın mənafeyinin diqqətə alınması üçün parlament və komitələrdə həyata keçirilən səsvermədə etnik amilə önəm verilir.

Bununla belə, hər yerdə olduğu kimi Cənubi Tirolda da ara-sıra separatçı meyllər özünü göstərir. Geniş hüquqlara malik əyalətdə həyat şəraitinin yüksək olmasına baxmayaraq, burada da müstəqillik tələb edənlər var. Separatçı elementlər alman dillilərlə italyan dillilərin əyalətdə "birgə" deyil, sadəcə "yanaşı yaşadıqlarını" iddia edirlər. Ancaq əhalinin dəstəyini ala bilməyən separatçılar azlıqdadır, çünki Cənubi Tirolun alman dilli əhalisinin belə şüarlara ehtiyacı yoxdur. Alman dillilər istədikləri qərarları qəbul edir, arzu etdikləri kimi yaşayır və buna görə də müstəqilliyə ehtiyac duymurlar.

Vaxtilə ATƏT-in Cənubi Osetiya və Abxaziyanı Cənubi Tirola çevirmək ssenarisi qəbul olunsaydı, kim bilir bu gün Cənubi Qafqazda hadisələr necə inkişaf edərdi. Doğrudur, Avstriyadan fərqli olaraq, Cənubi Osetiya və Abxaziya separatizminin arxasında Rusiya dayanır. Bu isə Cənubi Qafqazda Cənubi Tirol variantını əngəlləyə biləcək böyük gücün varlığına işarədir. Cənubi Tirola mənəvi dəstək verən Avstriyanın qonşusu İtaliyanı zəiflətmək kimi planı olmayıb. Rusiya isə Tiflisin siyasətinə təsir etmək üçün daima Cənubi Osetiya və Abxaziya separatizmindən yararlanıb.

Cənubi Tirol Avropa nümunəsi olsa da, bu muxtariyyət statusu ilə Dağlıq Qarabağ arasında da paralellər aparmaq mümkündür. Birinci oxşarlıq Dağlıq Qarabağda olduğu kimi, Cənubi Tirolun da iki icmadan ibarət olmasıdır. İkinci oxşarlıq isə ondan ibarətdir ki, Cənubi Tirol separatizmi ilk illərdə Avstriyaya arxalanırdısa, Dağlıq Qarabağ separatizmi də Ermənistanın dəstəyinə bağlıdır. Üçüncü oxşarlıq: Avstriya beynəlxalq aləmdən Cənubi Tirolun müharibədə məğlubiyyətə uğrayan İtaliyadan ayrılmasını tələb etdiyi kimi, Ermənistan da müharibədə qalib gəldiyini iddia edərək, dünyanın Dağlıq Qarabağın "müstəqilliyini" tanımasını istəyir.

İndi keçək Cənubi Tirolun problemlərinin uğurlu həllini şərtləndirən və onu Dağlıq Qarabağdan fərqləndirən amillərə. Cənubi Tirol İtaliya ilə Avstriyanın və əyalətdə yaşayan iki xalqın birgə həll etdiyi problemdir. Erməni separatçıları isə azərbaycanlıları bölgədən qovduqdan sonra problemin təkbaşına öz xeyirlərinə həll olunmasına çalışırlar. Digər tərəfdən Cənubi Tirol probleminin illərlə masa üzərində birgə həlli ondan xəbər verir ki, ərazi münaqişələrinin mərhələli çözümə ehtiyacı var. Ermənistan Dağlıq Qarabağ münaqişəsinin həlli planında bütün maddələrin bərabər tutulmasını və işğal altındakı torpaqların azad olunmasını referenduma bağlayır. Cənubi Tirol nümunəsində isə problem mərhələli şəkildə həllini tapıb. Əgər Avstriya və bölgədə yaşayan alman dillilər ilk illərdə Cənubi Tirol üçün müstəqillik tələb edirdilərsə, hadisələrin sonrakı inkişafında geniş muxtariyyətin daha məqbul olduğu qənaətinə gəldilər. Müstəqilliyin münaqişəyə yol açacağını sonrakı illərdə anlayan Avstriya tərəfləri razı salacaq varianta üstünlük verdi ki, prosesdə qalib və məğlub olmasın. Əgər alman dillilər də bölgə statusunun müəyyənləşməsində referendum tələbini önə çəksəy-

dilər, proses tamam başqa – təhlükəli istiqamətdə cərəyan edərdi. Buna ehtiyac duymayan hər iki xalq hazırda eyni siyasi, iqtisadi və mədəni məkanda varlığını sürdürür. Doğrudur, bizim halda Dağlıq Qarabağ və ətrafında tökülən qanlar hafizələrdən hələ uzun illər silinməyəcək. Bununla belə, Dağlıq Qarabağda baş verən qanlı olaylar dolayısıyla azərbaycanlılarla ermənilərin "birgə yaşamasının" obyektiv çətinlikləri varsa, "yanaşı yaşama"ya da heç nə mane olmur.

Alman dillilərin bölgəni Cənubi Tirol, italyan dillilərin Bolsano adlandırması da münasibətlərdə problem yaratmır. Dağlıq Qarabağın paytaxtını azərbaycanlılar qədim adı ilə – Xankəndi deyə çağırırlar, ermənilər isə Stepanakert deyirlər. Beynəlxalq konfranslara qatılan erməni separatçıları yaşadıqları şəhərin Xankəndi kimi təqdim edilməsinə daim etiraz edirlər, halbuki Cənubi Tirol-Bolsanonun nümunəsində ad məsələsinin tərəflərin öhdəsinə buraxıldığı görünür. Minsk Qrupu həmsədrləri də son zamanlar bu formuldan istifadə edirlər. Onlar Bakıda Xankəndi-Stepanakert, İrəvanda isə Stepanakert-Xankəndi ifadəsini işlətməyə çalışırlar.

Cənubi Tirolda verginin 90 faizinin əyalətdə saxlanılması, əlavə olaraq İtaliyanın da dövlət büdcəsindən yararlanması mexanizmi Dağlıq Qarabağda da uğurla işləyə bilər.

# TRİESTİN MÜSTƏQİLLİKDƏN ÜSTÜN TUTDUĞU MUXTARİYYƏTİ




Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov müsahibələrinin birində Dağlıq Qarabağ üçün Tatarıstan modeli ilə yanaşı Triest modelinin də adını hallandırmışdı.

“Azərbaycan Triest modelindən istifadəni istisna etmir” deyən nazir bunun üçün Dağlıq Qarabağın azərbaycanlı icmasının rəyinin öyrənilməsinin vacib olduğunu vurğulamışdı. Görünür, Elmar Məmmədyarov bir müddət Azərbaycanın İtaliyadakı səfiri vəzifəsində çalışdığından “Triest modeli” haqqında kifayət qədər məlumata malikdir və buna görə də onu Dağlıq Qarabağ üçün yararlı variant sayır.

Liman şəhəri olan Triest İtaliyanın Venesiya-Culiya Muxtar Vilayətinin paytaxtıdır. Triest eramızdan əvvəl I əsrdə Roma imperatoru Avqust tərəfindən inşa olunub. V əsrdə Roma imperiyasının dağılması nəticəsində şəhər hun tayfalarının lideri Atillanın əlinə keçib. VI əsrdə şəhərə Bizans imperiyası sahib çıxıb. Elə buna görə də tez-tez əldən-ələ keçən Triest azad şəhər kimi formalaşıb. 1382-ci ildə Avstriya krallığının müdafiəsi altına alınan şəhər Birinci Dünya müharibəsinədək Avstriya imperiyasının tərkibində qalıb. Yalnız qısa zaman kəsiklərində (1797-1805 və 1809-1813-cü il-

lərdə) Triest İtaliyanı işğal edən Fransa qoşunlarının nəzarətində olub. 1719-cu ildə Triest azad liman şəhəri elan edilib. 1891-ci ildə Avstriya hökuməti azad liman statusunu ləğv edərək, əvəzində şəhəri azad ticarət zonasına çevirib. Avstriyaya məxsus liman şəhəri dəniz və ticarət yollarının kəsişməsində yerləşdiyindən Triest XX əsrin əvvəllərinədək inkişaf dövrünü yaşayır.

Birinci Dünya müharibəsi Triestdən də yan keçmir. Müharibə Avstriya-Macarıstan imperiyasının sonunu gətirir. Müharibənin sonunda – 1919-cu ildə Sen-Jermen müqaviləsinin şərtlərinə görə, Cənubi Tirol və Trentino əyalətləri ilə birgə Triest şəhəri də Avstriyadan alınaraq İtaliyaya verilir. İkinci Dünya müharibəsi illərində alman qoşunları Triesti işğal edir. Bu şəhər bizə həm də "Mixaylo" ləqəbli partizan həmyerlimiz Mehdi Hüseynzadənin şücaəti ilə tanışdır. Mehdi Hüseynzadə məhz Triest və onun ətrafında alman qoşunlarına qarşı diversiyalar təşkil edirdi. Faşist Almaniyasının məğlub olduğu günlərdə –1945-ci il aprelin 30-da Yuqoslaviya partizan hərəkatının lideri Tito Triesti ələ keçirir. Ancaq bir müddət sonra müttəfiq ABŞ-Böyük Britaniya qoşunları şəhərlə birgə bütün İtaliyanı nəzarət altına alır. Müttəfiq qoşunlarla toqquşmadan çəkinən Tito 1945-ci ilin iyununda onların komandanlığı ilə anlaşma imzalayır. Anlaşmaya görə, Triest iki zonaya bölünür – şəhər müttəfiq qoşunların, şəhərətrafı qəsəbə və kəndlər isə Yuqoslaviya ordusunun nəzarətinə keçir. Triestlə bağlı son qərarı tərəflər İtaliya ilə imzalanacaq sülh müqaviləsindən sonraya saxlayırlar.

1947-ci il fevralın 10-da Parisdə Triestlə bağlı anlaşma imzalanır. Anlaşma özündə 3 sənədi ehtiva edir. Birinci sənəd "Triest azad zonasının daimi statusu", ikinci sənəd

“Triest azad zonasında müvəqqəti durum”, üçüncü sənəd isə “Triest azad liman zonasının durumu” adlanır.

Triest azad zonasının daimi statusu barədə imzalanmış sənəddə bildirilir ki, bu ərazinin müstəqilliyi BMT Təhlükəsizlik Şurası tərəfindən təmin edilir. Bu ərazi hərbsizləşdirilir və neytral sayılır. Onun öz bayrağı və gerbi, qubernatoru, İdarə Şurası, Xalq Məclisi və məhkəməsi var. Azad zona polis və təhlükəsizlik xidmətini yaradır. Triest azad zonası heç bir dövlətlə hərbi müqavilə imzalamaq səlahiyyətinə malik deyil. Ərazinin qubernatorunu Yuqoslaviya və İtaliya rəhbərliyi ilə məsləhətləşmədən sonra BMT Təhlükəsizlik Şurası təyin edir. Triestin iqtisadi, texniki, mədəni, sosial və səhiyyə sahələrində beynəlxalq təşkilatlarla əməkdaşlıq və anlaşmalar imzalamaq hüququ var. İtaliya Triestdə müavinətlərin verilməsinə görə məsuliyyət daşıyır.

Triestin iki rəsmi dili var: italyan və sloven dilləri.

1954-cü il oktyabrın 5-də Londonda İtaliyayla Yuqoslaviya arasında Triestə dair daha bir müqavilə imzalanır. 1975-ci ildə ratifikasiya olunan sazişə görə, Triestin şəhər hissəsi İtaliyanın, qəsəbə və kəndlər olan hissəsi isə Yuqoslaviyanın tərkibinə keçir. Hazırda sonuncu hissə Sloveniya Respublikasına aiddir.

Triest modelinin Dağlıq Qarabağ münaqişəsinin həllinə tətbiqi imkanlarından danışmaq çətindir. Çünki o, əsrlər boyu azad şəhər statusunda olub, işğalla üzləşsə də, faktiki müstəqil həyat sürüb. Buna baxmayaraq, İtaliyanın tərkibində olan Triestin azad şəhər statusu ATƏT həmsədrlərinin Dağlıq Qarabağ üçün nəzərdə tutduqları aralıq statusa bənzəyir. İtaliyanın mərkəzi hakimiyyəti şəhərin işlərinə qarışmır. Öz növbəsində şəhər də İtaliya qanunvericiliyinin, imzalanan anlaşmaların xaricinə çıxmadan verilən səlahiyyətlər çərçivə-

sində fəaliyyət göstərir. Siyasi hədəfi olmayan Triest ancaq gəlirlər və insanların rifahının yüksəlməsi haqqında düşünür.

Əlbəttə, Triestin liman şəhəri kimi üstünlükləri var, konkret qazanc yeri bəllidir. Daha öncə qeyd etdiyimiz kimi, Dağlıq Qarabağ iqtisadiyyatına gələcəkdə qazanc saxlayacaq sahələr bəlli deyil, ancaq münaqişə yoluna qoyularsa, bölgənin ən azı turizm potensialını hərəkətə gətirmək mümkündür. Yəni necə ki, Triest azad iqtisadi zona kimi fəaliyyət göstərir, iqtisadi, sosial və mədəni problemlərinin həlli ilə məşğul olur, eləcə də Dağlıq Qarabağ ən azı turizm sahəsinin inkişafı ilə iqtisadi yüksəlişə nail ola bilər. Azad iqtisadi zona Dağlıq Qarabağa imkan verər ki, bu istiqamətlərdə beynəlxalq təşkilatlarla da əməkdaşlıq etsin, iqtisadi nümayəndəliklər açsın, ortaq layihələr reallaşdırsın. Elmar Məmmədyarovun da ara-sıra misal çəkdiyi Tatarıstanın Azərbaycan da daxil olmaqla bir sıra ölkələrdə iqtisadi nümayəndəlikləri fəaliyyət göstərir. Azad iqtisadi zonanın üstün cəhətlərindən başlıcası münasibətləri faydalılıq üzərində qurmaqdır. Yəni bölgə daha çox qazanc və gəlirlərini artırmaq haqqında düşünür, siyasi iddialar isə arxa plana keçir. Çünki status tələbini artıracaq siyasi iddia illərlə formalaşan müsbət atmosferə zərər verə və indiyədək əldə edilənlərin üstündən xətt çəkə bilər. Məhz iqtisadi amilin üstünlüyün nəticəsidir ki, Kvebek, Kataloniya, Cənubi Tirol və ya Triestdə yaşayanların böyük əksəriyyəti separatçıların ara-sıra qaldırdıqları hay-küyə rəğmən, müstəqillik ideyasını dəstəkləmirlər.

# ŞİMALİ İRLANDİYA MODELİ: BÖYÜK BRİTANİYANIN ƏRAZİ BÜTÖVLÜYÜNÜ ŞƏRTLƏNDİRƏN GENİŞ ÖZÜNÜİDARƏ HÜQUQU




Böyük Britaniya krallığının tərkib hissəsi olan Şimali İrlandiya uzun illər Londonun əsas başağrısı olub. Bu bölgənin Dağlıq Qarabağ separatçılığı və terroru ilə bəzi oxşar və fərqli cəhətləri haqqında danışmaq mümkündür. Əsas fərq ondadır ki, Dağlıq Qarabağdan fərqli olaraq adından da göründüyü kimi Şimali İrlandiya tarixi İrlandiya ərazisidir. Ancaq bugünkü reallıq bundan ibarətdir ki, Şimali İrlandiya Böyük Britaniyanın muxtar ərazisidir.

Dağlıq Qarabağda olduğu kimi, Şimali İrlandiyada da əhalinin bir qrupu Böyük Britaniyanın ərazi bütövlüyünə tərəfdar olsa da, digər qrup müstəqillik adı altında silahlı terrora əl atıb. Partlayış və qətllərin sayı-hesabı olmayıb. Ancaq separatçıların və terrorçuların qanlı mübarizəsi Londonun siyasətini dəyişməyib. Ermənistan Dağlıq Qarabağdakı separatçılığı bəslədiyi kimi, Şimali İrlandiya separatçıları da uzun illər kənardan silah və maliyyə dəstəyi alıblar. Dağlıq Qarabağdakı "miatsum" (birləşmə) hərəkatının

oxşarı burada da cərəyan edib. Şimali İrlandiya katolikləri uzun illər İrlandiya ilə birləşmək tələbini irəli sürüblər.

London Şimali İrlandiya əhalisinə bir neçə dəfə referendum keçirmək imkanı yaradıb. Bəlkə də referendumun nəticəsi Londona əvvəlcədən bəlli olduğundan o, xalqın səsverməsinə imkan verib. Bütün hallarda Şimali İrlandiya əhalisinin əsasını təşkil edən protestantların Böyük Britaniyanın ərazi bütövlüyünə səs verəcəyi əvvəlcədən bəlli idi. Əksi olsaydı, kim bilir, London referenduma razılaşardımı?

Paytaxtı Belfast olan Şimali İrlandiya 6 qraflıq və 26 ərazi vahidindən ibarətdir. Şimali İrlandiya İrlandiya adasının 1\6 hissəsini təşkil edir. Bölgə əhalisinin 1,5 milyonundan 3\5 hissəsi protestant, 2\5 hissəsi katolikdir. İrland protestantlar tarixən Şimali İrlandiyanın Böyük Britaniya krallığı tərkibində varlığına, katoliklər isə İrlandiya Respublikası ilə birləşməsinə tərəfdar olublar. Yəni Şimali İrlandiyada dini fərqlilik siyasi baxışların fərqliliklərinə də səbəb olub.

Böyük Britaniya hökuməti Şimali İrlandiya problemini ilk dəfə 1912-ci ildə həll etməyə çalışıb. Baş nazir Herbert Askvit irlandlara daha çox özünüidarə hüququ vermək istəyirdi, ancaq buna etiraz edən Şimali İrlandiya protestantları küçələrə çıxaraq Böyük Britaniyanın tərkibində yaşamaq istədiklərini bildiriblər. Böyük Britaniyadakı mühafizəkar və ordu qüvvələrinin simpatiyası da protestantların tərəfində idi. Buna görə də Böyük Britaniya hökuməti sonrakı qərarlarında Şimali İrlandiya protestantlarının istəklərini qulaqardına vura bilməyib.

Buna baxmayaraq, katoliklər də əliboş oturmamışdılar. 1916-cı ildə İrlandiyanın paytaxtı Dublində başlayan qiyam katoliklərin İrlandiyanı birləşdirmə ideyasını ümummilli hərəkata çevirdi. Birinci Dünya müharibəsi illərində Böyük

Britaniya ordusu ilə silahlı katoliklər arasında toqquşmalar qeydə alındı. Ölkə parlamenti 1920-ci ildə İrlandiyanın cənub və şimalında iki ayrı qanunverici orqanın formalaşmasına qərar verdi.



*Böyük Britaniya əsgərlərinin Şimali İrlandiyanın Londonderri şəhərciyində 1972-ci ildə öldürdüyü 14 katolikin anma mərasimi*

Şimali İrlandiya 1920-ci ildən başlayaraq İrlandiya hökuməti ilə imzalanan akt əsasında idarə olunurdu. Bu sənədə görə, muxtar statusa malik olan Şimali İrlandiya parlamenti Böyük Britaniyanın müdafiə, xarici siyasət, məhkəmə və bəzi vergilər xaricində müstəqil qanunlar çıxarmaq hüququna malik idi. Bu, faktiki İrlandiya Respublikasının yaradılmasına yol açdı. London Şimali İrlandiyaya cənubla birləşmək imkanı verir, bir şərtlə ki, əhalinin böyük əksəriyyəti bu qə-

rarı dəstəkləsin. Ancaq ümümxalq səsvermәsində Şimali İrlandiya əhalisinin əksəriyyəti Böyük Britaniyanın tərkibində qalmağa səs verir. Bu nəticədən narazı qalan katoliklərin radikal İrlandiya Respublika Ordusu Şimali İrlandiyanın güc yoluyla İrlandiyaya birləşdirilməsinə çalışır. Bununla da katoliklərlə protestantlar arasında qanlı mübarizənin başlanğıcı qoyulur. Yalnız 1922-ci ildə baş verən toqquşmalarda 232 nəfər həlak olur.

1920-ci illərin sonunda Şimali İrlandiyada nisbi sabitliyə nail olunur. 1939-cu ildə başlanan İkinci Dünya müharibəsi İrlandiya problemini bir qədər arxa plana atsa da, katoliklərlə protestantlar arasında nifaq azalmır, iki dini qrup bir-biri ilə əməkdaşlıqdan çəkinirlər.

İrlandiya Respublika Ordusu 1960-cı illərin sonunda fəaliyyətini genişləndirir: qruplaşma xaricdən xeyli miqdarda silah və sursat gətirməyə nail olur. 1972-ci ildə katoliklərin keçirdiyi mitinqdə Böyük Britaniyanın ordu hissələrinin açdığı atəş nəticəsində 14 nəfər həlak olur və bölgədəki vəziyyət daha da gərginləşir. Bu olay sonrakı illərdə terrorçuların sıralarının artmasına şərait yaradır. Tarixə “qanlı bazar” günü kimi düşən olaydan 38 il keçdikdən sonra – 2010-cu il iyunun 16-da Böyük Britaniyanın baş naziri Devid Kemeron açıqlama ilə çıxış edərək, hadisə qurbanlarının ailələrindən üzr istəyir.

London 1973-cü ildə bölgənin gələcəyi ilə bağlı Şimali İrlandiyada referenduma yaşıl işıq yandırır. Katoliklər nəticənin onların xeyrinə olmayacağını anlayaraq referendumu boykot edirlər. Referendumun nəticəsi gözlənildiyi kimi olur. Şimali İrlandiya əhalisinin əksəriyyəti Böyük Britaniyanın bölünməzliyinə səs verir. Terrorun baş qaldırdığı illərdə Şimali İrlandiyada aləm bir-birinə dəyir. Odur ki, bölgənin qanunvericilik hüququ Böyük Britaniya parlamentinə, icra-

edici səlahiyyətlər isə hökumətdə yeni yaradılan Şimali İrlandiya məsələləri üzrə nazirə həvalə edilir. Bunun əvəzinə Şimali İrlandiyaya 4 ildən bir seçilən 78 nəfərlik və məhdud səlahiyyətləri olan Assambleyanın formalaşdırılması üçün imkan yaradılır. Proporsional əsasda formalaşan Assambleyaya katolik azlıq üçün də yer ayrılır. Ancaq bu qanunverici qurumun da ömrü uzun sürmür. Bəzi radikal protestant qrupların fəaliyyəti nəticəsində Assambleyanın işinə xitam verilir və bölgə yenidən birbaşa London tərəfindən idarə olunmağa başlayır.

Şimali İrlandiyada populyar olan partiyalar bunlardır: Protestantların Olster Yunionist Partiyası, Sosial-Demokrat Partiyası, Leyboristlər Partiyası və Mərkəzçi Partiya. Yunionistlər Böyük Britaniya ilə birliyin tərəfdarıdırlar, katoliklərdən formalaşan sosial-demokratlar və leyboristlər isə İrlandiya ilə birləşmək siyasətini dəstəkləyirlər. O ki qaldı mərkəzçilərə, onlar Londonla inteqrasiya tərəfdarı olsalar da, həm protestant, həm də katolik radikalizmi pisləyirlər.

Bu partiyaların xaricində ekstremist qruplar da var ki, onlar illər boyu aralarındakı mübahisəni silah yoluyla həll ediblər. Ən tanınmışı, əvvəldə qeyd etdiyimiz kimi, katoliklərin İrlandiya Respublika Ordusudur. Beynəlxalq aləmdə bu qurum terrorçu təşkilat kimi tanınıb. İrlandiya Respublika Ordusunun siyasi qanadı olan Şin Feyn Partiyası isə açıq fəaliyyət göstərir. Protestantların yarı gizli fəaliyyət göstərən Oranjistlər Ordeni adlanan ekstremist qrupu mövcuddur. Katoliklərlə protestantların gizli qruplaşmaları illər boyu bir-biri ilə silahlı mübarizə aparıblar. Nəticədə 1964-1994-cü illər ərzində 3 min insan qətlə yetirilib.

1985-ci ildə Böyük Britaniyayla İrlandiya Respublikası arasında Şimali İrlandiya problemi ilə bağlı saziş imzalanır.

Sazişə görə, bölgə İrlandiyaya yalnız o halda birləşə bilər ki, Şimali İrlandiya əhalisinin böyük əksəriyyəti bu qərara səs versin. Bu saziş Şimali İrlandiyanın hər iki dini radikal qrupu tərəfindən tənqid olunur və bölgədə partlayışlarla qətllərin sayı yenidən artır. Bu qarşıdurma 1990-cı illərin ortalarınadək davam edir.

1993-cü ildən başlayaraq Böyük Britaniyanın dövlət məmurları Şin Feyn Partiyasının liderləri ilə gizli görüşlərə baş vururlar. Şin Feyn Partiyasının lideri Cerri Adams 1994-cü ildə ABŞ-ı ziyarət edərkən verdiyi açıqlamada, İrlandiya Respublika Ordusunun zorakı üsullardan imtina etməyə hazır olduğunu dilə gətirir. Nəticədə, elə həmin ilin oktyabrında Şimali İrlandiyada radikal qruplar arasında atəşkəsə nail olunur.

Böyük Britaniya hökuməti 1995-ci ildə Şimali İrlandiya probleminin siyasi həlli məqsədilə təkliflər irəli sürür. Bu təkliflərə görə, Şimali İrlandiyada yenidən Assambleya qurulur və bölgənin özünüidarə hüququ artırılır. Təklif qəbul edildiyi üçün Böyük Britaniya silahlı qüvvələri tədricən bölgəni tərk etməyə başlayırlar. Buna baxmayaraq, tərksilah olmaqdan imtina edən İrlandiya Respublika Ordusu 1996-cı ildə yenidən partlayışlar törədir. Yalnız bir il sonra Cerri Adams İrlandiya Respublika Ordusu rəhbərliyini silahlı qarşıdurmaya son qoymağa razı sala bilir.

Böyük Britaniyanın keçmiş baş naziri Toni Bleyer 1997-ci il oktyabrın 13-də Londonda Cerri Adamsla görüşərək, gələcək sazişin detalları haqqında müzakirə aparır. Bu müzakirələrdə amerikalı senator Corc Mitçel vasitəçi qismində çıxış edir. Nəhayət, 1998-ci ildə bütün tərəflərin iştirakı ilə anlaşma imzalanır. Anlaşmaya görə, Şimali İrlandiya Böyük Britaniyanın tərkib hissəsi kimi tanınır, İrlandiya Res-

publikası ərazi iddiasından əl çəkir, bunun əvəzində də bölgəyə geniş özünüidarə hüququ verilir. Anlaşmanın imzalandığı bu illər ərzində Şimali İrlandiyada elə böyük toqquşma və ya siyasi qarşıdurma qeydə alınmayıb.

Eyni anlaşmanı biz də Ermənistana təklif edirik. Azərbaycanın ərazi bütövlüyü tanınsın, Ermənistan ərazi iddiasından vaz keçsin və bundan sonra Dağlıq Qarabağa geniş özünüidarə hüququ verilsin.

# KATALONİYANIN MADRİDLƏ RAZILAŞDIRDIĞI STATUS




Avropa ölkələri ard-arda Kosovonun müstəqilliyini tanıdıqları zaman buna qarşı çıxan ölkələrdən biri də İspaniya idi. Çünki İspaniyanın özündə bir neçə bölgə var ki, Kosovonun müstəqilliyi onlar üçün pis örnək ola bilərdi. Bask və katalon separatizmi Madridə daima problem yaradır.

Kataloniya İspaniyada geniş muxtariyyətə malik olan bölgədir. Təxminən 32 min kvadrat kilometr ərazisi və 7 milyon əhalisi (bu, İspaniya əhalisinin 15 faizidir) olan Kataloniyanın paytaxtı Barselona şəhəridir.

Katalonların Şimali Afrikanın iberlər tayfasından formalaşdığı və eramızdan 700 il əvvəl Afrika qitəsindən İspaniyaya köçərək indiki Barselonanın ətrafında məskunlaşdıqları bildirilir. Bizim eranın 414-cü ilində hestqoqlar İspaniyanın şimalını ələ keçirərək bölgəyə Qotaloniya adı verirlər. 1808-1814-cü illərdə Kataloniya Fransa müstəmləkəçiliyinə qarşı qiyam qaldırır. Napoleonun qoşunları bölgəyə daxil olaraq Barselonanı dağıdırlar.

Kataloniya 1833-cü ildə sənaye inkişafına baş vurur. İspaniyada ilk dəmir yolu 1848-ci ildə məhz burada istifadəyə verilir. Həmin illərdə Kataloniyada sənət, ədəbiyyat və mədəniyyətin digər sahələr sürətlə inkişaf edir.

Kataloniya 1871-ci ildə İspaniyadan ayrılmağa çalışır, ancaq uzun danışıqlardan sonra krallığın tərkibində qalmağa davam edir. 1898-ci ildə ABŞ-la müharibədə müstəmləkələrini itirən İspaniya krallığının tənəzzül dövrü başlayır və bu, Kataloniyaya da sirayət edir.

1914-cü ildə bölgədə yerli özünüidarə şurası formalaşır. İspaniyanın o zamankı diktatoru Primo de Rivera şuranın müstəqillik əldə etmə çalışmalarının qarşısını alır. Kataloniya ilk dəfə 1932-ci ildə İspaniya Respublikasının tərkibində muxtariyyət statusu qazanır. Ancaq bölgə bu statusdan faktiki bəhrələnə bilmir. Çünki 1936-cı ildə İspaniyada vətəndaş müharibəsi başlayır. Diktator Frankonun silahlı qüvvələri 1939-cu ildə Barselonaya daxil olaraq yerli respublikaçılara divan tutur. Kataloniya muxtariyyət hökumətinin başçısı Luis Kompanis edam edilir. 1977-ci ildə Frankonun ölümündən sonra İspaniyada referendum keçirilir və referendumun nəticəsinə əsasən, İspaniya yenidən konstitusiyalı monarxiya sisteminə qayıdır. Kataloniya ikinci dəfə 1979-cu ildə muxtariyyətinə qovuşur. 1980-ci ildə burada keçirilən parlament seçkilərində Jordi Pujol muxtar bölgənin baş naziri seçilir. Kataloniya Parlamenti 135 deputatdan formalaşır və prezideнти dörd ildən bir seçir.

Əhalisinin əksər hissəsi katalonlardan formalaşan bölgədə iki rəsmi dil var: katalon və ispan dili. Katalon dili roman dil qrupuna aiddir, ispan dilindən fərqlənir. Kataloniyanın dövlət universitetlərində və məktəblərində təhsil katalon dilində aparılır. Yaşayış məntəqələrinin əksəriyyəti katalon mənşəlidir.

Kataloniya iqtisadi nöqteyi-nəzərdən İspaniyanın ən inkişaf etmiş bölgəsi sayılır. Kataloniyanın milli daxili məhsulunun həcmi Finlandiya və Danimarka ilə eynidir. Bölgə İspaniya milli daxili məhsulunun 23 faizini verir. Adambaşına düşən milli daxili məhsul isə Almaniyadakı kimidir. İspaniyanın kimya, maşınqayırma və tikiş sənayesinin böyük hissəsi Kataloniyada yerləşir. Yeraltı sərvəti olmayan bölgədə kənd təsərrüfatına əhalinin cəmi 2 faizi cəlb olunub.

Göründüyü kimi, Kataloniya iqtisadi baxımdan inkişaf etdiyindən muxtariyyətin artırılması mövzusu bölgənin siyasi dairələrində daima gündəmdədir. 2003-cü ildə Paskual Maraqall Kataloniyanın prezidenti seçildikdən sonra seçicilərə bölgənin statusunu dəyişdirəcəyini vəd edir. Bu vəddən bir il sonra işçi komissiya təsis edilir və yeni status üzərində çalışmalara başlanılır. 2005-ci ildə Kataloniya parlamenti böyük çoxluqla bölgənin yeni status mətninə səs verir. Bu sənəd İspaniyanın müvafiq orqanlarına göndərilir. Kataloniyanın yeni statusu İspaniyanın dövlət və ictimai dairələrində geniş müzakirə mövzusuna çevrilir. Mərkəz muxtar bölgənin daha böyük status istəyini etirazla qarşılayır. Yeni status sənədindəki maddələrin İspaniya Konstitusiyası və qanunlarına zidd olması vurğulanır. Kataloniya rəhbərliyinə zidd maddələrin dəyişdirilməsi tövsiyə edilir.

Bu arada, İspaniyanın şəhərlərində ölkənin bütövlüyü uğrunda mitinqlər düzənlənir. İspaniya müxalifəti Kataloniyanın istəyinə yumşaq münasibət göstərdiyi üçün baş nazir Rodriqes Sapaterorunu tənqid edir. Müxalifət liderlərindən Marinao Rahoy baş nazirə müraciətində deyirdi: “Siz İspaniyanı hara apardığınızı bilmirsiniz. İspaniyanın dağılması təhlükəsi var. Bu siyasətin sonu yoxdur”.

Vəziyyətin böhranlı nöqtəyə gəlməməsi üçün qarşılıqlı razılaşma əsasında Kataloniyanın yeni status layihəsinə müvafiq düzəlişlər edilir. 2006-cı il iyunun 18-də keçirilən referenduma maraq az olsa da, sənəd bəyənilir. Bununla da Kataloniyanın muxtar statusu bir qədər də artırılır.



Yeni status anlaşmasına görə, Kataloniya ilə İspaniya arasında səlahiyyət bölgüləri dəqiqləşdirilir. Madrid Kataloniya hökumətinin səlahiyyətinə daxil olan məsələlərə qarışmamaq öhdəliyi götürür. Bölgə geniş iqtisadi səlahiyyətlər qazanır. Yığılan verginin tən yarısı Kataloniyada qalır. Hava və dəniz limanları, telekommunikasiya sahələri, daxili təhlü-

kəsizlik və ədliyyə sistemi Kataloniya hökumətinin səlahiyyəti çərçivəsinə daxil edilir.

Kataloniyaya verilən geniş səlahiyyətlərə baxmayaraq, ara-sıra müstəqillik çağırışları da eşidilir. Məsələn, 2009-cu il dekabrın 13-də Kataloniyada qeyri-rəsmi referendum keçirilir. Referenduma qatılanların 94 faizi bölgənin müstəqilliyinə səs verir. Ancaq katalonlar referenduma dəstək vermir. Buna misal kimi qeyri-rəsmi referenduma əhalinin cəmi 30 faizinin qatıldığını göstərmək kifayətdir.

Kataloniyanın müstəqillik tərəfdarları arasında məşhur simalar da var. Bu sırada  məşhur futbol klubu "Barselona"nın keçmiş prezidenti Huan Laportanın adını çəkmək olar. Laporta futbol klubunun prezidentliyini tərk etdikdən sonra siyasi partiya təsis edəcəyini söyləmişdi. O, Kataloniyanın İspaniyadan ayrılmasını yeni siyasi qurumun əsas məqsədi olduğunu deyib. Əvvəllər də separatçı şüarlarla çıxış edən Laporta İspaniyanın tərkib hissəsi olan Kataloniyanın müstəqilliyi uğrunda fəaliyyət göstərən insanları dəstəklədiyini heç zaman gizlətməyib.

Kataloniyanın statusu və onun ətrafındakı müzakirələrin Dağlıq Qarabağ üçün mühüm dərsləri ola bilər. Birincisi, Dağlıq Qarabağdan fərqli olaraq Kataloniya varlı bölgədir və məhz daha çox maliyyə resurslarına nəzarət etmək üçün hər dəfə statusunun artırılmasına çalışır. Dağlıq Qarabağın isə, əksinə, əvvəlki bölmələrdə də vurğuladığımız kimi, gələcəkdə əlavə maliyyə resurslarına ehtiyacı olacaq. Başqa sözlə, Dağlıq Qarabağın "müstəqilliyə" deyil, Azərbaycanla bağlılığına ehtiyacı var ki, daha çox maliyyə vəsaitinə yiyələnə bilsin və bu, yekun status anlaşmasında da yer alsın. İspaniyanın Kataloniyaya verdiyi iqtisadi müstəqilliyi Azərbaycan da Dağlıq Qarabağa verməyə hazırdır.

Kataloniya İspaniyadan daha çox müstəqilliyə can atsa da, bunu Madridlə müzakirə şəklində həyata keçirir. Bölgə yeni statusla bağlı anlaşmanın mətnini Madridə göndərir və qarşılıqlı anlaşma şəraitində ziddiyyətli maddələrdən imtina edilir. Yəni Kataloniya yeni genişləndirilmiş statusunu mərkəzin xeyir-duası ilə əldə edir. Bu, muxtar bölgə ilə mərkəz arasındakı münasibətlərə örnək olacaq davranışdır. Kataloniya və katalonların iqtisadi müstəqillikləri yüksək səviyyədə olduğu üçün onların böyük əksəriyyəti bölgənin siyasi müstəqilliyinə maraq göstərmir. Çünki anlayırlar ki, müstəqillik uğrunda mübarizə onların indiki rifahının üstündən xətt çəkə bilər.

# HONKONQ MODELİ: “BİR DÖVLƏT – İKİ SİSTEM”




... Çin Xalq Məclisinin sədr müavini Vu Banqo 2007-ci ildə Honkonq Konstitusiyasının 10 illiyi ilə əlaqədar Pekində keçirilən seminardakı çıxışında Honkonqun muxtariyyətinin tamamən Çindən asılı olduğunu söyləmişdi. Honkonq vətəndaşlarına azadlıqların və Konstitusion hüquqların mərkəzi hakimiyyət tərəfindən verildiyini deyən Banqo bu bölgənin “bir dövlət – iki sistem” konsepsiyası çərçivəsində Çinin tərkib hissəsi olduğunu vurğulamışdı. Bu açıqlama Honkonq və onun arxasında duranlara ünvanlanan xatırlatmalardan biri idi.

İrili-xırdalı 260 adadan formalaşan Honkonqun ərazisi 1066 kvadrat kilometrdir. Onun 7 milyona yaxın olan əhalisinin 98 faizini çinlilər təşkil edir. Rəsmi dil Çin dili olsa da, əhali arasında ingilis dili populyardır. Honkonq Çinin xüsusi iqtisadi zonası olan Quandunla həmsərhəddir.

1842-ci ildə Böyük Britaniya tərəfindən işğal olunan Honkonq 1997-ci ilədək bu ölkənin koloniyası sayılıb. Başqa sözlə, Honkonq 155 il Böyük Britaniyanın nəzarəti altında olub. 1860-cı ildə İkinci Opium müharibəsində Çin Böyük Britaniyaya məğlub olduqdan sonra Honkonqa bitişik digər adalar

da imperiyanın nəzarətinə keçib. Ancaq bu torpaqların ona məxsus olmadığını anlayan Böyük Britaniya 1898-ci ildə adaları 99 illiyinə Çindən icarəyə götürməsinə dair sazişə imza atıb.

İkinci Dünya müharibəsinin başlamasından istifadə edən Yaponiya 1941-ci il dekabrın 8-də Honkonqu işğal edir. Adaları müdafiə edən Britaniya və Kanada hərbi birlikləri məğlub olaraq oranı tərk edirlər. Yaponiyanın işğalı dövründə Honkonqda əsl tənəzzül başlayır – ərzaq qıtlığı yaranır, hiperinflyasiya baş qaldırır, 4 ildə əhalinin sayı 1,6 milyondan 600 nəfərə qədər azalır. 1945-ci il avqustun 15-də Yaponiya kapitulyasiyasını elan etdikdən sonra Honkonq yenə Böyük Britaniyanın nəzarətinə keçir. Ancaq Honkonq hələ sakitlikdən uzaq idi.

İkinci Dünya müharibəsinin ardından Çində vətəndaş müharibəsi başlayır. Honkonqa qaçanların sayı durmadan artır. Kommunistlərin liderliyi ilə 1949-cu ildə Çin Xalq Respublikası elan edildikdən sonra Honkonq böyük qaçqın axını ilə üzləşir. Kommunistlərin təzyiqlərindən ehtiyat edənlər kapitalist adasında məskən salırlar. Çin kommunistləri Böyük Britaniyanın bayrağı altında olan adaları işğal edə bilməsələr də, Honkonq ətrafındakı mühasirəni gücləndirirlər. Buna baxmayaraq, Çin uzun illər məhz Honkonq üzərindən Qərblə təmas saxlamağa üstünlük verir.

Honkonqda işçi qüvvənin ucuzluğu adanın iqtisadi inkişafına yol açır, sənayenin bir çox sahələrində sıçrayış qeydə alınır. Maraqlıdır ki, 1978-ci ildə Çində start verilən iqtisadi islahatların əsas lokomotivi Honkonq olur. Xarici kapital Çinə Honkonq üzərindən istiqamətlənir. Pekin bu amildən istifadə edərək Honkonqla bitişik Quandun vilayətində azad iqtisadi zona yaradır.



1980-ci ildə Honkonqun gələcək statusu ilə bağlı Çinlə Böyük Britaniya arasında müzakirələr başlayır və 1984-cü ildə ortaq deklarasiya imzalanır. Bu sənədə görə, 1997-ci ildə Honkonq Çinə qaytarılmalı idi. Ancaq deklarasiyada bölgənin Çinin tərkibində xüsusi statusu olacağı da vurğulanırdı. Qeyd edilirdi ki, Honkonq ən azı 50 il ərzində Çinin tərkibində yüksək statusa malik olmalıdır.

1989-cu ildə Pekində tələbə hərəkatının zorakı üsullarla dağıdılması və həbs dalğasının güclənməsi Qərbdə Çinin Honkonqla bağlı üzərinə götürdüyü öhdəliyi yerinə yetirməyəcəyi qorxusunu artırır. Buna görə də 1990-cı ildə Honkonqda Konstitusiyanı əvəz edəcək əsas qanun qəbul olunur. Çinin etirazlarına rəğmən, bölgənin britaniyalı qubernatoru Kris Patten həmin qanunla bağlı xalqın dəstəyini almaq üçün adada referendum keçirir. Yeni qanuna görə, Honkonq Çinin nəzarətinə keçdikdən sonra adanın siyasi landşaftına və demokratiyasına xələl gəlməyəcəkdi. Nəhayət, 1997-ci il iyulun 1-də Honkonq Çinə təhvil verilir.

Honkonq hazırda Çinə məxsus olan geniş muxtariyyətli bölgədir. Ada müdafiə və beynəlxalq əlaqələrin xaricində müstəqil qanunverici, inzibati və məhkəmə sisteminə malikdir. Honkonqun polisi, maliyyə sistemi, hava və dəniz

limanları, gömrüyü Çinə tabe deyil. Adanın xarici dövlət və beynəlxalq təşkilatlarla mədəni əlaqələrə malik olmaq hüququ var.

Honkonqun ABŞ-la əlaqələri diqqətəlayiqdir. Honkonqun xarici dövlətlərlə yalnız mədəni əlaqələrə malik ola bilməsinə baxmayaraq, Çinin bu bölgəsinə Vaşinqtonun marağı azalmayıb. ABŞ Dövlət Departamenti və Konqresi Honkonqla bağlı hesabatlar hazırlayır, dinləmələr həyata keçirirlər. Bu hesabatlarda belə bir fikir vurğulanır: "Honkonqda yaşayan insanlar amerikalıların dəyərlərini bölüşürlər. Ona görə də insan hüquqları və demokratik institutların inkişafı sahəsində Honkonqla əməkdaşlığa önəm veririk".

Vaşinqtonun məqsədi "bir dövlət – iki sistem" konsepsiyasının varlığına baxmayaraq, adanın tədricən Çinin təsiri altına düşməsini əngəlləməkdir. ABŞ-da hesab edirlər ki, zaman keçdikcə Çinin Honkonqa təzyiqi arta bilər. 2000-ci illərin əvvəllərində Çinin rəsmi dairələri Honkonqda nəşr edilən qəzetlərdə yayılan məqalələrdən şikayət etdikdə, məsələyə müdaxilə edən ABŞ hökuməti Honkonqda söz azadlığına riayət edildiyini və mətbuatın azad olduğunu vurğulayan açıqlama yaymışdı.

Öz növbəsində rəsmi Pekini narahat edən odur ki, Çinin siyasətini qəbul etməyən dissidentlər Honkonqda məskunlaşır, daha sonra da ada üzərindən Çin hakimiyyətinə qarşı təbliğat imkanlarını hərəkətə gətirirlər. ABŞ da həmin dissidentlərə sahib çıxaraq, Honkonqda onların fəaliyyətinin davam etməsinə şərait yaradır.

ABŞ Honkonqla iqtisadi əlaqələrə də xüsusi önəm verir. Okeanın o tayı bölgə üçün əsas gəlir mənbəyidir. ABŞ Honkonq malları üçün başlıca bazar sayılır. Təsadüfi deyil ki, ABŞ-la Honkonq arasında iqtisadi-ticarət mübadiləsinin

həcmi 62 milyard dollar təşkil edir. Bölgədə mindən çox ABŞ şirkətinin təmsilçiliyi var. Adada ən azı 50 min amerikalı yaşayır. Odur ki, ABŞ – Honkonq əlaqələri Çin hökumətini qıcıqlandırsa da, Pekin bu prosesi əngəlləmək iqtidarına deyil.

Dağlıq Qarabağ Azərbaycanın tarixi ərazisi olduğu kimi, Honkonq da Çinin tarixi ərazisidir. İki əsr bundan öncə Honkonqu işğal etməsinə baxmayaraq, Böyük Britaniya sonda bu torpaqların ona aid olmadığını anladı və o illərdə beynəlxalq aləmdə əsas söz sahibi olmasına rəğmən, Honkonqu Çinə təhvil verəcəyinə dair anlaşmaya imza atmaq məcburiyyətində qaldı. Dağlıq Qarabağ və ətraf rayonları işğal edən Ermənistan Böyük Britaniyanın indiki güc və qüdrətinin mində birinə sahib deyil. Ona görə də Londonun bir zamanlar dərk etdiyini İrəvan da nə vaxtsa qəbul etmək məcburiyyətində qalacaq.

Honkonqun muxtar statusu Azərbaycanın Dağlıq Qarabağ üçün təklif etdiyi ilə faktiki eynidir. Honkonqda olduğu kimi, Azərbaycan da müdafiə və xarici siyasətin xaricində Dağlıq Qarabağa özünüidarə üçün geniş iqtisadi və mədəni əlaqələr verməyə hazırdır. Honkonqun ABŞ-la qurduğu geniş iqtisadi əlaqələrin eynisini Dağlıq Qarabağın erməni əhalisi Ermənistanla qura bilər. Sadəcə, böyük bir fərq var. ABŞ və Honkonq – hər iksi varlıdır, onların kənar maliyyə dəstəyinə ehtiyacı yoxdur. Dağlıq Qarabağ və Ermənistan isə kənar subsidiyalar olmadan yaşaya bilməzlər. Odur ki, Ermənistanın indi və gələcəkdə Dağlıq Qarabağa verəcəyi iqtisadi səmərədən danışmağa dəyməz. Əksinə, İrəvan ədalətli həll planına razılıq verərsə, həm Ermənistanın, həm də Dağlıq Qarabağın Azərbaycan və Türkiyənin yatırımlarına və bölgə layihələrində iştirakına ehtiyacı olacaq.

# PUERTO-RİKODAKI REFERENDUM ERMƏNİ SEPARATÇILARININ TƏLƏB ETDİYİ REFERENDUMA BƏNZƏMİR




Azərbaycan təcrübə baxımından dünyada mövcud olan muxtar qurumlara maraq göstərirsə, Ermənistan, əksinə, müstəqillik qazanmaq yoluna irəliləyən muxtariyyətləri diqqət mərkəzində saxlayır. Rəsmi İrəvan Kosovonun müstəqillik qazanmasına məhz bu aspektdən yanaşmışdı. Ermənistan hakimiyyəti bir ara Dağlıq Qarabağ üçün "Kosovoya olar, bizə niyə olmasın" sualını gündəmə çıxarmağa çalışdı. Ancaq o, ilk kəskin cavabı elə Qərbdən aldı. Qərb rəsmiləri və diplomatları Kosovo ilə Dağlıq Qarabağı səhv salmamağı məsləhət bildilər və rəsmi İrəvanın bu mövzuya marağı azaldı.

Ermənistanın siyasi və ekspert dairələri indi də diqqəti uzaq Puerto-Rikoya yönəldiblər. Çünki bu bölgə növbəti referenduma hazırlaşır.

Karib dənizində yerləşən və ABŞ-a bağlı olan 4 milyonluq Puerto-Riko Amerikanın tamhüquqlu ştatı sayılmasa da, müstəqil dövlət də deyil. Puerto-Riko ABŞ-a birləşən azad assosiasiyalı dövlət sayılır. Ada sakinləri ABŞ ordusunda xidmət

edir, prezident və Konqresə keçirilən seçkilərdə iştirak etmir, bir çox vergilərdən azaddırlar. Buna baxmayaraq, ada ABŞ Konqresi və federal qanunlarına tabedir. Puerto-Rikolular ABŞ vətəndaşlığına malikdirlər. Ada dövlətin öz Konstitusiyası, müstəqil qanunverici, icraedici və məhkəmə sistemi var. Xarici siyasət və müdafiə məsələləri isə ABŞ-a tabedir.

Adada iki dəfə – 1993 və 1998-ci illərdə referendum keçirilib. Hər iki səsvermədə ada sakinləri ABŞ-ın tərkibində qalmağa üstünlük veriblər. Ancaq status məsələsi ara-sıra gündəmə gəldiyindən Vaşinqton hər dəfə mövzuya diqqət yetirmək məcburiyyətində qalır. Bunun nəticəsidir ki, ABŞ-ın keçmiş prezidenti Bill Klintonun təlimatı ilə 2000-ci ildə Puerto-Rikonun gələcək statusunu müəyyənləşdirəcək xüsusi komissiya təsis edilmişdi. Doğrudur, Corc Buşun prezidentliyi dövründə komissiyanın fəaliyyəti nəzərə çarpmadı, ancaq Barak Obama Ağ evə yiyələndikdən sonra komissiyanın fəaliyyəti yenidən bərpa edildi. Komissiyaya ABŞ ədliyyə nazirinin müavini Ton Perelli və Ağ evin nazirliklərarası əlaqələr üzrə direktoru Sesiliya Munyos başçılıq edirlər.

Hazırda ABŞ Konqresində Puerto-Rikonun gələcək statusu ilə bağlı qanun layihəsi üzərində iş gedir. Layihədə adada iki referendumun keçirilməsi nəzərdə tutulub. Birinci referendumda ada sakinlərinə indiki statusu dəyişib-dəyişməmək sualı veriləcək. İkinci referendumda isə sakinlər bülletendəki 4 cavabdan birini seçməlidirlər: "Puerto-Riko ABŞ-ın ştatına çevrilməlidir", "ABŞ-ın tərəfdaşı olaraq suverenlik qazanmalıdır", "İndiki statusunu qorumalıdır" və ya "Müstəqil dövlət olmalıdır".

"ABŞ nədən hər dəfə  Puerto-Rikoya referendum keçirməyə şərait yaradır" sualına cavab vermək üçün adanın keçdiyi tarixi yola diqqət yetirmək lazım gəlir.

Puerto-Riko əsrlər boyu İspaniyanın müstəmləkəsi olub. İspaniya kralının 1815-ci ildə verdiyi fərmana görə, ispanların və İspaniya kralına loyal yanaşan avropalıların adaya köçməsi təqdir edilib. Adaya İspaniyadan başqa Almaniya, Fransa, Portuqaliya, İrlandiya və Kanar adalarından köçənlər olub. Bu köç qısa müddətdə adanın inkişafına yol açaraq şəkər çuğunduru, tütün və kofeni Puerto-Rikonun əsas ixrac məhsullarına çevirib.



XIX əsrin ortalarında Puerto-Rikonun muxtariyyəti uğrunda hərəkat güclənib. 1860-cı ildə burada artıq 600 minə yaxın insan yaşayırdı. Adada kənd təsərrüfatının inkişaf etməsinə baxmayaraq, ağır əmək şərtləri, yolların olmaması və təbii fəlakətlər xeyli problem yaradırdı. Buna əlavə olaraq,

İspaniya kral ailəsinin tətbiq etdiyi yüksək tarif və vergilər adada böhranı daha da dərinləşdirirdi. Nəticədə 1868-ci ildə Puerto-Rikonun Lapes şəhərində müstəqillik uğrunda hərəkat başlayır. İspaniya krallığı həmin il qiyamı yatırsa da, sonrakı dövrdə vəziyyət tədricən Madridin nəzarətindən çıxır. 1898-ci ildə adada qısa müddətə muxtariyyət elan edilir. İspaniya ilə müharibə aparan ABŞ qoşunları eyni ildə Puerto-Rikonu ələ keçirirlər. Nəticədə İspaniya 1898-ci il Paris anlaşmasına görə, Puerto-Riko, Kuba, Filippin və Quam adalarından imtina edir.

ABŞ XX əsrin əvvəllərində adaya qubernator təyin edir. 1917-ci ildə isə ada sakinlərinə Amerika vətəndaşlığı verilir. Puerto-Riko sakinləri ABŞ vətəndaşları kimi Birinci Dünya müharibəsində iştirak edirlər. 1930-cu illərdə ABŞ-da baş qaldıran ağır iqtisadi böhran Puerto-Rikonu da vurur. Həmin illərdə burada müstəqillik hərəkatı yenidən baş qaldırır. ABŞ müstəqillik tərəfdarı olan Puerto-Riko Millətçi Partiyasının lideri Pedro Kamposu iki dəfə həbs edir. Adada ilk dəfə demokratik seçki nəticəsində iş başına gələn qubernator Luis Munyos Marin öncə müstəqilliyə tərəf çıxsa da, iqtisadiyyatın getdikcə tənəzzülə uğradığını gördükdə bu fikrindən vaz keçir və ABŞ-a bitişik azad assosiasiyalı ərazi statusuna üstünlük verir. O, bunu adanın gələcək müstəqillik yolunda aralıq statusu kimi dəyərləndirirdi.

ABŞ-da Ruzvelt və Trumenin prezidentliyi illərində Vaşinqton Puerto-Rikonun idarə edilməsi ilə bağlı yerli qüvvələrlə güzəşt axtarışına baş vurur. Ən əsası odur ki, Vaşinqton daha adaya qubernator təyin etmir, onu ada sakinləri özləri seçirlər. 1948-ci ildə qubernator seçilən Lusi Munyos Marin 16 il, yəni 1964-cü ilədək bu vəzifədə qalır. Buna baxmayaraq, adada separatizm meylləri də ara-sıra müşahidə

olunur. 1950-ci il noyabrın 1-də iki puerto-rikolu separatçı hətta prezident Harri Trumenə qarşı uğursuz sui-qəsd planlaşdırır. Trumen bu hadisədən iki il sonra adada Konstitusiyanın qəbuluna yol açan referendumun keçirilməsinə icazə verir. Elə həmin il ada indiki statusunu əldə edir. Puerto-Riko aqrar ölkədən sənaye ölkəsinə çevrilir. Bu gün adada turizm sahəsi də geniş inkişaf edib, bu isə büdcənin zənginləşməsinə şərait yaradıb.

Buna baxmayaraq, XX əsrin ortaları puerto-rikoluların ABŞ-a köçü ilə yadda qalıb. Əgər 1945-ci ildə ABŞ-a 13 min puerto-rikolu köçmüşdüsə, 1955-ci ildə bu rəqəm 700 minə, 5 il sonra isə 1 milyona çatmışdı. Onlar əsasən Nyu-Yorkda yaşayırlar.

Beləliklə, Vaşinqton Puerto-Rikoya yenidən seçim imkanı yaradır. Ada sakinləri iki dəfə bu hüquqdan istifadə edərək, "ABŞ-la davam" cavabına üstünlük veriblər. Çünki bu, iqtisadi baxımdan onlar üçün daha sərfəlidir. Elə müdafiə məsələlərinin ABŞ-ın tabeliyində olması da Puerto-Rikoya sərf edir. Belə olmasa, özü buna həm xeyli maliyyə, həm də insan resursu ayırmaq məcburiyyətində qalar. Ancaq gələcəkdə ada hətta müstəqilliyə səs versə belə, bu, ABŞ üçün böyük itki sayılmayacaq. Əksinə müstəqillik Puerto-Rikonun qazancını azaltmaqla itkilərini artıracaq.

Erməni separatçıları Puerto-Riko kimi misalları əllərində rəhbər tutaraq, eyni seçimin onlara da verilməsini tələb edirlər. Doğrudur, ABŞ Puerto-Rikoya iki dəfə referendum keçirməyə imkan verib, indi üçüncüsünə hazırlaşır. Ancaq məsələ bundadır ki, bu səsverməyə gəlib çıxana qədər ada ABŞ-la birgə uzun bir məsafə qət edib, mərkəzin siyasi və iqtisadi imkanlarından yararlanıb. Və məhz bunun nəticəsidir ki, hər iki referendumda ada sakinləri müstəqilliyə "yox"

deyiblər. Puerto-Riko bir növ mərhələli həll planının süzgəcindən keçib. Yəni adada uzun müddətli aralıq statusu yaşandıqdan sonra referenduma gəlib çıxıblar. Erməni separatçıları isə keçid müddətini yaşamadan, onun mümkün nəticələrini, bəhrələrini hesablamadan indidən Dağlıq Qarabağda referendum tarixinin müəyyənləşdirilməsini istəyirlər. Elə bu səbəbdən də Dağlıq Qarabağda ermənilərin tələb etdiyi referendum Puerto-Rikodakı gələcək referenduma bənzəmir. Təsadüfi deyil ki, Minsk Qrupunun hazırladığı planda da əvvəlcə aralıq statusu haqqında maddə gəlir, sonra hansısa qeyri-müəyyən müddətdə referendumun keçirilməsi irəli sürülür. Aralıq statusla referendum arasındakı məsafə on illərlə uzana, hətta əbədi qala da bilər. Bu məsafəni Şuşa, Laçın, Kəlbəcər də daxil olmaqla Azərbaycanın işğal altındakı torpaqları geri qaytarıldıqdan, qaçqınlar evlərinə döndükdən, Ermənistanla Azərbaycan və Türkiyə arasında kommunikasiya xətləri açıldıqdan, bölgədə Ermənistanın da qatıldığı ortaq layihələr gerçəkləşməyə başladıqdan sonra müəyyənləşdirmək olar.

# DAĞLIQ QARABAĞ MODELİ: STATUSSUZ STATUS




Göründüyü kimi, kitabda nəql edilən muxtariyyətlərin özünəməxsus tarixləri və inkişaf yolları var. Ancaq ön sözdə də qeyd etdiyimiz kimi, muxtariyyətləri birləşdirən amillər onları ayıran amillərdən çoxdur. Ən əsası, bu muxtariyyətlər tarixdən aldıqları acı dərsləri doğru dəyərləndirərək, sonrakı illərdə qarşıdurmaya yox, əməkdaşlıq və qarşılıqlı anlaşma yollarına üstünlük veriblər. Bu yol həm muxtar qurumları, həm ərazilərində yerləşdikləri dövlətləri, həm də bölgəni mümkün təlatümlərdən qurtarıb.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin də təlatümsüz həll yoluna ehtiyacı var. Bu, qarşılıqlı güzəştlər tələb edən yoldur. Əlbəttə, yaxın tarixdə üzləşdiyimiz faciələr hələ uzun müddət unudulmayacaq. Ancaq gələcək inkişaf və yeni savaşın ortadan qaldırılması naminə sülh planı hərəkətə gətirilməli, əvvəllər olduğu kimi Dağlıq Qarabağda iki icmanın varlığı sürdürülməlidir.

Madrid və ya yeniləşdirilmiş Madrid prinsiplərində Dağlıq Qarabağ üçün aralıq statusu nəzərdə tutulub. Statussuz status kimi dəyərləndirdiyim aralıq status qeyri-müəyyən keçid dövründə bütün tərəflərə məqbuldur. Dağlıq Qarabağa aralıq statusu verməklə onun təhlükəsizliyinə və özünü idarə

etməsinə təminat verilir. Bu arada işğal altındakı torpaqlar boşaldılmağa başlanır, dəhliz məsələsi həll olunur və kommunikasiya xətləri açılır.

Azərbaycan prezidenti 2009-cu il iyulun 13-də Londonda Kral Beynəlxalq Münasibətlər İnstitutundakı çıxışında ATƏT-in Minsk qrupu həmsədrlərinin təkliflərində müstəqilliyə nail olmaq üçün mexanizmlərin olmadığını, ancaq aralıq statusunun mümkünlüyünə bu sözlərlə işarə etmişdi: "Fakt ondan ibarətdir ki, Dağlıq Qarabağ bu günə qədər heç bir ölkə, o cümlədən Ermənistan tərəfindən tanınmayıb. Bu, aydın şəkildə onu göstərir ki, müstəqillik mümkün deyil. Nəyə nail olmaq olar? Dağlıq Qarabağın erməni və azərbaycanlı icmaları arasında sülh şəraitində birgə yaşamasına nail olmaq olar". Başqa sözlə, iki icma hazırkı statussuz şəraitdə də birgə yaşaya bilər.

Ermənilərə nə lazımdır? Dağlıq Qarabağ ən azı indiki qeyri-müəyyən statusunu qorusun, Ermənistana çıxış imkanı əldə etsin, beynəlxalq təhlükəsizlik təminatı alsın. Bizə nə lazımdır? İşğal altındakı torpaqlarımızın hamısı boşaldılsın, qaçqınlar yurd-yuvalarına geri dönsün, Dağlıq Qarabağda yaşayacaq vətəndaşlarımızın təhlükəsizliyi təmin olunsun və bölgədə referendum keçirilməsin. Aralıq statusu bütün bunların bir arada olmasına şərait yaradır.

Rəsmi İrəvan aralıq statusunun əleyhinə deyil, sadəcə, vasitəçilərdən həll planında bu statusun hansı tarixdə bitəcəyinin dəqiq göstərilməsini tələb edir ki, ondan sonra referenduma yaşıl işıq yandırılsın.

Ermənistan prezidenti Serj Sərkisyan 2009-cu ildə Rusiyanın "RTR" televiziya kanalına müsahibəsində daha bir iddia ortaya atdı. O, yalnız Dağlıq Qarabağın statusu müəyyənləşəndən sonra azərbaycanlı qaçqınların geri qayıda bilə-

cəyini söylədi. Ermənistan prezidenti bu mövqeyini onunla izah edirdi ki, guya azərbaycanlı qaçqınların statusdan əvvəl geri qayıtmaları bölgədə yeni münaqişə ocağı yarada bilər. ATƏT-in Minsk qrupunun indiyə qədər mövcud olan bütün həll planlarında azərbaycanlı qaçqınların geri qayıtması Dağlıq Qarabağın statusunun müəyyənləşməsindən əvvələ təsadüf edir. Madrid və ya yeniləşdirilmiş Madrid prinsiplərində də bu belədir. Məntiqlə azərbaycanlı qaçqınların hamısı Dağlıq Qarabağa qayıtsa belə, ermənilər nisbət etibarilə bölgədə çoxluq təşkil edəcək və istənilən səsvermədə üstünlüyə malik olacaqlar. Onda Sərkisyan nədən ehtiyat edir?



*Аьдам*

Görünür, Ermənistan prezidenti geri qayıdan azərbaycanlı qaçqınların Dağlıq Qarabağın "müstəqillik" tələbləri ilə barışmayacağından və tarixi hələ bəlli olmayan mümkün referendumu boykot edəcəklərindən qorxur. Bu, bir növ ermənilərin misal çəkdiyi Kosovo modelinə bənzəyir. Koso-

voda kompakt şəkildə yaşayan serb azlıq alban çoxluğun müstəqilliyini və hakimiyyətini tanımayaraq Serbiyanın qanunlarına tabedirlər. Eyni ilə Şuşa və ətraf kəndlərdə kompakt şəkildə yaşayan azərbaycanlılar da müstəqilliyə çalışan Xankəndinin təlimatlarına tabe olmayacaq, özləri müstəqil fəaliyyətə baş vuracaqlar. Bu halda isə erməni separatçılarının özləri daxili "separatçılıqla" üzləşəcəklər.

Erməni azlığı Azərbaycanın daxilində öz müqəddəratını həll etməyə iddialıdırsa, eynilə azərbaycanlı azlığın da Dağlıq Qarabağın daxilində öz müqəddəratını müəyyənləşdirmək hüququ meydana çıxacaq. Ermənilər daxili "separatçılığı" güc yolu ilə həll etməyə çalışsalar, məsələyə Azərbaycan ordusu qarışmalı olacaq. Və bununla da yenidən 20 il əvvəlki duruma qayıdacağıq. Ancaq bu dəfə separatçıların bölgənin azərbaycanlı əhalisini yurdlarından qovması imkanları xeyli azalacaq. Görünür buna görə də Sərkisyan indidən özünü sığortalamaq və hadisələrin deyilən istiqamətdə inkişafından çəkindiyi üçün "əvvəl status, sonra qaçqınlar" deyir. Ancaq bu prinsipi nəinki Azərbaycan, beynəlxalq aləm də qəbul etməz. Dağlıq Qarabağın statusunun konkretləşməsi tələbi ən yaxşı halda münaqişənin həllinin uzanması, ən pis halda isə atəşkəsin mütəmadi pozulması hallarının çoxalması və münaqişənin yenidən alovlanması mərhələsinə keçməsi deməkdir. Ona görə də həmsədrlər ilkin mərhələdə Dağlıq Qarabağ üçün aralıq statusu təklif edirlər ki, münaqişəni nizamlamaq mümkün olsun.

## Mənbələr:


1. Томас Харботл. Битвы мировой истории (Аландские острова – северная война);
2. А.В.Моденов, Ю.В.Моденова. Аландские острова. 2009;
3. "Tatarıstan prezidenti Mintimer Şaymiyev Bakıda ikitərəfli əlaqələri müzakirə etdi". "Azərbaycan" qəzeti, 22 noyabr 1996;
4. Р.Ф. Абдрахманов. Республика Татарстан. Модель этнологического мониторинга. Категория 3. Власть, государство и политика. 1999;
5. Elmar Məmmədyarov. "Ermənistanın mövqeyində bəzi yeni məqamlar var". "Azadlıq" radiosu. 2008;
6. Александр Андреев. История Крыма. 2002;
7. О.В. Романько. История Крыма – Партизаны и Крымско-татарское население в годы оккупации. 2007;
8. В.Г.Зарубин. Депортация из Крыма. 2006;
9. Густав Радде. Крымские татары;
10. Энциклопедия Кольера. Канада. История после 1945 года;

11. Quebec – The Canadian Encyclopedia;

12. Я.В. Корсаков. Государственное устройство Канады. Сепаратизм в Квебеке. 2004;

13. Т.М.Исламов. Австро-Венгрия в Первой Мировой войне. Крах империи. Южный Тироль. 2001;

14. «Далай-лама в гостях у регионального правительства Южного Тиролья – автономного региона Северной Италии с особым законодательством». ASKA. 2009;

15. «Тбилиси предлагает Сухуми и Цхинвали модель автономии Южного Тироля». Газета «Резонанси». 2008;

16. Документы «О постоянном статусе свободной территории Триест», «Положение о временном режиме свободной территории Триест» и «Положение о свободном порте Триест». 1947;

17. Elmar Məmmədyarov. “Triest modelinin tətbiqi üçün Qarabağın azərbaycanlı icmasının razılığı lazımdır”. “Azadlıq” radiosu. 2006;

18. Ю.М.Сапрыкин. История создания и деятельности Ирландской Республиканской Армии. 1996;

19. «Северная Ирландия проголосовала за расширение автономии». Reuters. 2009;

20. “Böyük Britaniyanın baş naziri Devid Kemeron 39 ildən sonra “qanlı bazar gününə” görə irlandlardan üzr istədi”. “Azadlıq” radiosu. 2010;

21. Д.Жвания. Каталония: модель будущего для всех. 2005;

22. «В Испанском обществе разгорелась дискуссия о новом статусе Каталонии». РИА Новости. 2005;

23. Паскуаль Марагаль. Испания: Усиление автономии регионов или ползучая федерализация страны. 2005;

24. В.А.Дергачев. Великий китайский порядок. Одна страна – две системы. 2004;

25. М.С.Вонг. Иммигранты из Гонконга. 1997;

26. «Пуэрто-Рико требует большей автономии от США». Газета «Коммерсант». 2007.

Çapa omzalanmışdır: 28.10.2010
Formatı 60x84 1/16
Fiziki ç/v.5
Tirajı 300

**«Qanun» nəşirlər evi**
Bakı, A3 1102, Tibilisi pros, II Alatava 9
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az



ELXAN ŞAHİNOĞLU – 1971-ci ildə Bakı şəhərində anadan olub. Məmməd Əmin Rəsulzadə adına Bakı Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsinin məzunudur (1988-1993). Əmək fəaliyyətinə 1993-cü ildən başlayıb. Dövlət Quruculuğu və Beynəlxalq Münasibətlər İnstitutunun elmi-tədqiqat mərkəzinin analitik şöbəsinin müdiri vəzifəsində çalışıb. 1995-ci ildə mətbuatda fəaliyyətə başlayan müəllif müxtəlif illərdə "Millət", "Azadlıq", "Gün səhər" qəzetlərinin informasiya və analitik bölmələrinin rəhbəri olub. 2001-2004-cü ildə Türkiyənin TRT televiziyası və "Anadolu" agentliyinin Bakı bölmələrində fəaliyyət göstərib. 2005-ci ildə "Atlas" Araşdırmalar Mərkəzini təsis edən müəllif hazırda müstəqil siyasi şərhçi kimi çıxış edir. 2009-cu ildən Azərbaycan Avrointeqrasiya Milli İctimai Komitəsinin üzvüdür.

QANUN nəşrlər evi
Bakı, Azərbaycan, AZ 1102,
Tbilisi pros., II Alatava 9.
Tel\Faks: (+994 12) 431 38 18; 431 16 62.
e-mail: info@qanun.az
www.qanun.az